

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET   № 43 (7298) / Çərşənbə axşamı, 5 mart 2019-cu il


## AZƏRBAYCAN-SƏUDİYYƏ ƏRƏBİSTANI: yeni əməkdaşlıq sahələri müəyyənləşdirilir



⇨ Baxı: səh. 2

## Paytaxtda "Bakı 2019: Ulduzlar Finalı" qarşılaşması keçirilib



⇨ Baxı: səh. 3

Baxı: səh. 2

## Birinci-vitse prezident Mehriban Əliyeva Əməkdar artist Bəhram Bağırzadəni qəbul edib



Baxı: səh. 4



*Bəhram Qasemi:*

**Ermənilərin Azərbaycan əleyhinə şüar qaldırmaları yolverilməzdir və özbaşınalıqdır**

Baxı: səh. 9



**Nərgiz Paşayeva Rusiya Təhsil Akademiyasının akademiki (xarici üzvü) seçilib**

Baxı: səh. 4

## Ali Məclisdə görüş



Baxı: səh. 5



## YAP-ın rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi

## AFFA-nın hesabat konfransı




⇨ Baxı: səh. 6

Baxı: səh. 8



**Davamlı, sistemli islahatlar Azərbaycanın iqtisadi qüdrətini və əhalinin sosial rifahını daha da yüksəldib**

Baxı: səh. 11



**Daşqın İskəndərov Bakı Ali Neft Məktəbinin tələbələri ilə görüşüb**

Baxı: səh. 9

*Hikmət Hacıyev:*

**Sumqayıt hadisələrini təşkil edən etnik erməni Qriqoryanda bir çox sualların cavabı var**



**9** *Dövlət Departamenti:* ABŞ əvvəlki kimi Dağlıq Qarabağ münaqişəsi tərəflərinə həll yollarının axtarışına kömək etməyə sadiqdir

**13** "Elçisi gülüm olanın..." YAXUD BİR XƏYANƏTKARIN AQİBƏTİ...

**16** Xarici görünüşə təsir edən vərdişlər

# Birinci-vitse prezident Mehriban Əliyeva Əməkdar artist Bəhram Bağırzadəni qəbul edib



**Azərbaycanın Birinci-vitse prezidenti Mehriban Əliyeva martın 4-də Əməkdar artist Bəhram Bağırzadəni qəbul edib.**

Görüşdə martın 1-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə B.Bağırzadənin Bakıda görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə heykəl ucaldılması ilə bağlı irəli sürdüyü təklif müzakirə olunub.

B.Bağırzadə Trend-ə açıqlamasında bildirib ki, açığı, hər şeyin belə tez baş verəcəyini gözləmirdi: "Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşümüzdən cəmi bir neçə gün keçib və məni yenə dəvət etdilər, Hacı Zeynalabdin Tağıyevin heykəli ilə bağlı fikirlərimi dinlədilər. Görüşdə ilkin olaraq heykəlin ucaldılacağı ərazinin müəyyən edilməsi barədə razılığa gəlindi. Bunun üçün şəhərin mərkəzində beş-altı yer təklif olundu.

Seçimi peşəkarlar - şəhərsalma üzrə mütəxəssislər, memarlar və heykəltəraşlar edəcəklər. Sonra heykəltəraşlar arasında müsabiqənin elan ediləcəyi gözlənilir və onlar öz işlərini təqdim edəcəklər. Komissiya yaradılacaq, ən yaxşı iş seçiləcək. Müsabiqədə tələbələrdən tutmuş ən tanınmış peşəkarlara qədər hər kəs iştirak edə biləcək".

## GƏNCƏDƏ ABADLIQ-QURUCULUQ İŞLƏRİNƏ MALİYYƏ VƏSAİTİ AYRILIB

Azərbaycan Prezidenti İlham Əliyev Gəncə şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi haqqında Sərəncam imzalayıb.

Bu barədə Prezidentin Mətbuat xidmətindən Trend-ə məlumat verilib. Sərəncama əsasən Gəncə şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 11,0 (on bir) milyon manat, o cümlədən küçələrin əsaslı təmiri üçün 4,0 (dörd) milyon manat, işıqlandırma sistemlərinin yenilənməsi üçün 1,0 (bir) milyon manat, əhaliyə kommunal xidmətlər göstərilməsi sahəsində istifadə olunan maşın və mexanizmlərin alınması üçün 6,0 (altı) milyon manat ayrılıb.

Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

## TEATRLARIN İNKİŞAFINA 1,8 MİLYON MANAT AYRILIB

Prezident İlham Əliyev Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Azərbaycan teatr sənəti ölkəmizin ictimai-mədəni həyatında daim fəal rol oynamışdır. Xalqımız milli ədəbiyyatın qiymətli nümunələri ilə yanaşı, dünya dramaturgiyasının inciləri ilə məhz Azərbaycan teatrının dolğun repertuarı sayəsində yaxından tanış olmaq imkanı əldə etmişdir. Cəmiyyətimizdə milli və ümumbəşəri dəyərlərin təbliğində, vətənpərvərlik ruhunun, yüksək mənəvi keyfiyyətlərin aşılanması və estetik zövqün formalaşdırılmasında teatrın əvəzsiz xidmətləri vardır.

Azərbaycan teatrının fəaliyyəti həmişə olduğu kimi, bu gün də dövlətimizin diqqət mərkəzindədir. Milli teatrın parlaq bədii irsinin qorunması, teatr sahəsində islahatların aparılması, teatr mədəniyyətinin təbliği və bütövlükdə Azərbaycan teatr sənətinin inkişafı ilə bağlı silsilə tədbirlər həyata keçirilir.

Sərəncamda qeyd edilir ki, Azərbaycan teatr ənənələrinin qorunub saxlanması və dövrün tələblərinə uyğun inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 1,8 milyon (bir milyon səkkiz yüz min) manat, o cümlədən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və Azərbaycan Dövlət Kukla Teatrının hər birinə 200,0 (iki yüz) min manat, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Gəncə Dövlət Dram Teatrı, Sumqayıt Dövlət Dram Teatrı, Mingəçevir Dövlət Dram Teatrı, Lənkəran Dövlət Dram Teatrı və Şuşa Dövlət Musiqili Dram Teatrının hər birinə 100,0 (yüz) min manat ayrılsın.

Maliyyə Nazirliyi Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

# AZƏRBAYCAN-SƏUDİYYƏ ƏRƏBİSTANI: yeni əməkdaşlıq sahələri müəyyənləşdirilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun sədri, Səudiyyə Ərəbistanı-Azərbaycan Hökumətlərarası birgə Komissiyasının həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömərin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, İbrahim bin Əbdülrəhman əl-Ömər İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman Əl Saudun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfərindən məmnunluq hissi keçirdiyini qeyd edərək, Azərbaycanda gördükləri inkişaf proseslərinin, mədəniyyət və arxitektura nümunələrinin, xüsusilə Heydər Əliyev Mərkəzinin gözəlliyinin nümayəndə heyəti üzvlərində dərin təəssürat yaratdığını vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanda gedən böyük quruculuq işlərinin, ən müasir infrastrukturun yaradılmasının iqtisadiyyatın bütün sahələrinə, o cümlədən turizmin inkişafına böyük təkan verdiyini vurğuladı.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq əlaqələrinin genişləndiyi, ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, İbrahim bin Əbdülrəhman əl-Ömərin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu, hökumətlərarası komissiyanın əməkdaşlığın inkişafı işinə töhfə verdiyi qeyd edildi.

Söhbət zamanı, həmçinin bildirildi ki, Səudiyyə Ərəbistanı Azərbaycanla əməkdaşlığı genişləndirməkdə və ölkə iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymaqda maraqlıdır. Məmnunluq ifadə olundu ki, bir il ərzində Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayı dəfələrlə artıb.

Görüşdə ölkələrimiz arasında yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, energetika, investisiya, bərpa olunan enerji mənbələrinin yaradılması, turizm və turizm infrastrukturu, sənaye, kənd təsərrüfatı, neft-qaz, alternativ enerji, nəqliyyat və digər istiqamətlərdə əlaqələrimizin inkişaf perspektivləri müzakirə edildi, ticarət dövriyyəsinin artırılmasının və bunun üçün logistik və nəqliyyat imkanlarının araşdırılmasının vacibliyi qeyd olundu.

Dövlətimizin başçısı İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd Əl Saudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və vəliəhdə çatdırmağı xahiş etdi.

# Azərbaycan-ABŞ ikitərəfli münasibətləri uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Mark Şnayer dinlər və mədəniyyətlərarası dialoqun təşviqi və müxtəlif dini və etnik icmaların sülh şəraitində birgə yaşaması baxımından Azərbaycanın nümunəvi dövlət olduğunu və dünyada bu işə öz töhfəsini verdiyini bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, multikulturalizm və müxtəlif etnik və dini icmaların Azərbaycanda dinc yanaşı yaşamalarının təmin edilməsi dövlət siyasətidir və eyni zamanda, xalqımızın əsrlər boyu yaşadığı həyat tərzidir.

Söhbət zamanı dinlər, mədəniyyətlər və sivilizasiyalararası dialoqun möhkəmlənməsi və dünyada təşviq edilməsi işində Azərbaycanda böyük önəm daşıyan beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olundu və ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfə verdiyi vurğulandı.

# Prezident yeni səfirlərin etimadnamələrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Venesuela Bolivar Respublikasının, Ruanda Respublikasının və Tailand Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Venesuela Bolivar Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristofer Alberto Martinez Berroteran, Ruanda Respublikasının səfiri Vilyams Nkurunziza və Tailand Krallığının səfiri Phantipha İamsudha Ekarohit etimadnamələrini Prezident İlham Əliyevə təqdim etdilər.



# Paytaxtda "Bakı 2019: Ulduzlar Finalı" qarşılaşması keçirilib





**Bakının UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final matçına ev sahibliyi etməsi ilə əlaqədar ölkəmizdə təşkil olunan silsilə tədbirlər çərçivəsində martın 3-də paytaxtın mərkəzində, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısında "Bakı 2019: Ulduzlar Finalı" adlı qarşılaşma keçirilib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və qızı Leyla Əliyeva qarşılaşmaya baxıblar.

"Bakı 2019: Ulduzlar Finalı"nda "Qərb Ulduzları" və "Şərq Ulduzları" komandaları qarşılaşıblar.

Oyunda məşhur futbolçular Yeju Dudek, Maykl Essien, Anderson Luis de Souza (Deku), Hamit Altıntop, Nihat Kahveci, Andrey Arşavin, Revaz Arveladze, eləcə də yerli veteran futbolçulardan Nazim Süleymanov və UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyununun səfiri Vəli Qasımov iştirak ediblər. Bundan başqa,





Regionlar Liqasından Şöhrət Rəhimov, azarkeşlər arasında keçirilmiş müsabiqə əsasında seçilən Zaman Zahirzadə, Məhəmməd Tanrıverdiyev və Avropa Liqasının finalına həsr olunmuş "İntellektual Kubok"un qalibi olan İTV komandasının kapitanı Tural Dadaşov da meydana çıxıblar.

Əvvəlcə Prezident İlham Əliyev oyunda iştirak edən futbolçularla görüşdü.

UEFA Avropa Liqasının kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim edildi.

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra oyun başladı.

Gərgin idman mübarizəsi şəraitində keçən görüş "Qərb Ulduzları" komandasının 11:10 hesablı qələbəsi ilə başa çatdı.

Sonra Prezident İlham Əliyev oyunu izləyən gənc azarkeşlərlə görüşdü, xatirə şəkilləri çəkdirdi.

* * *

Qeyd edək ki, 2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi futbol üzrə UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final oyununun 2019-cu il mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edib. UEFA Avropa Liqasının final qarşılaşmasının Bakıda keçirilməsi ilə əlaqədar paytaxtında silsilə tədbirlər təşkil olunur. Belə ki, UEFA Avropa Liqasının zəngin irsinin təbliği məqsədilə Bakıda dekabrın 22-dən yanvarın 7-dək "UEFA Avropa Liqası Muzeyi" fəaliyyət göstərib. Fevralın 28-də isə UEFA Avropa Liqasının final oyununa ümumi oturacaqlar üçün bilet satışının qeydiyyatına başlanılıb. Bilet satışının bu mərhələsində həlledici görüş üçün nəzərdə tutulan 64 min biletdən 37 min 500-ü ümumi satışa buraxılıb.

Bu mötəbər futbol turnirinin kubok səyahətinə martın 9-da Cenevrədə start veriləcək. Martın 22-23-də Sevilya, martın 29-30-da Berlin, aprelin 5-6-da London, aprelin 12-də Milan, aprelin 20-də Moskva, mayın 10-da Parisdə olacaq kubok mayın 16-da rəsmi qaydada Bakıya gətiriləcək.



UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya Stadionunda keçirilməsi ilə bağlı qərar son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurdur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycanın son illərdə bir neçə mötəbər beynəlxalq idman yarışına - I Avropa, IV İslam Həmrəyliyi oyunlarına, Formula 1 yarışına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına yüksək səviyyədə ev sahibliyi etməsi Azərbaycanın idman dövləti olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, bu gün ən mötəbər idman qurumları nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verirlər. Belə ki, UEFA Avropa Liqasının final oyunu ilə yanaşı, 2020-ci ildə futbol üzrə Avropa çempionatının qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir oyununun, bu il iyunun 20-28-də Avropa Gənclərinin Yay Olimpiya Festivalının Bakıda keçirilməsi barədə qərarlar bunun göstəricisidir.

İdmançılarımızın olimpiada, dünya və Avropa, eyni zamanda, digər beynəlxalq idman tədbirlərində qazandıqları medalların sayının ilbəil artması dövlət səviyyəsində idman sahəsinə göstərilən diqqətin nəticəsidir. Təqdirəlayiq haldır ki, uşaqlar və gənclər arasında idmana böyük maraq var. Bütün bunlar digər sahələr kimi, Azərbaycan idmanının da inkişafının ən parlaq dövrünü yaşadığını nümayiş etdirir.

# HÜSEYNQULU SARABSKİNİN 140 İLLİYİ QEYD EDİLƏCƏK

**Azərbaycan Prezidenti İlham Əliyev Hüseynqulu Sarabskinin 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Bu barədə Prezidentin Mətbuat xidmətindən Trend-ə məlumat verilib.**

2019-cu ilin mart ayında görkəmli opera müğənnisi, aktyor, rejissor, pedaqoq və teatr xadimi, Xalq artisti Hüseynqulu Sarabskinin (Hüseynqulu Məlik oğlu Rzayevin) anadan olmasının 140 illiyi tamam olur.

Hüseynqulu Sarabski Azərbaycanın teatr və musiqi mədəniyyətinin böyük nümayəndələri sırasında layiqli yer tutan tanınmış şəxsiyyətlərdəndir. Şərqlə Qərbin musiqili teatr ənənələrinin qovuşuğunda meydana gəlmiş və dünya opera sənətinin unikal hadisəsinə çevrilmiş muğam operasının təşəkkülündə onun ifaçı kimi müstəsna xidmətləri var. Muğamları dərindən bilən, parlaq aktyorluq istedadına malik sənətkar milli opera və operettalarda əsas partiyaların ilk və unudulmaz ifaçısı olub, uzunmüddətli dolğun səhnə fəaliyyəti ərzində rəngarəng obrazlar qalereyası yaradıb. Sarabski respublikanın mədəni həyatında yaxından iştirak edib, eyni zamanda, muğam sənətinin təbliği və tədrisinə mühüm töhfələr verib.

Azərbaycan teatr sənətinin inkişafı naminə təqdirəlayiq fəaliyyətini nəzərə alaraq Xalq artisti Hüseynqulu Sarabskinin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi görkəmli sənətkar Hüseynqulu Sarabskinin 140 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## ƏFV MƏSƏLƏLƏRİ KOMİSSİYASI TOPLAŞIB

*Dünən Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib. İclasda əfvlə bağlı müraciətlərə baxılıb. Komissiyanın indiyə qədər keçirilən iclaslarında ümumilikdə 400-dən artıq müraciətə baxılıb.*

*Qeyd edək ki, Əfv Məsələləri Komissiyasının ötən il yanvarın sonlarından mayın ortalarına qədər davam edən iclaslarında 1200-dən artıq müraciətə baxılmışdı. İclasların ardınca, 2018-ci il mayın 24-də Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında Sərəncam imzaladı.*

*Əfv sərəncamı ümumilikdə 634 nəfərə şamil olundu.*

# Ali Məclisdə görüş



Martın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Araz Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Möhsün Nərimanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ali Məclisin Sədri Möhsün Nərimanı təbrik edərək ona yeni vəzifəsində uğurlar arzulayıb, muxtar respublikanın iş adamlarının Araz Azad Ticarət və Sənaye Zonası ilə əlaqələrinə diqqəti çəkib. Maku Azad Ticarət və Sənaye Zonasının nümayəndə heyətinin Naxçıvana səfərini xatırladan Ali Məclisin Sədri muxtar respublika ilə sərhəddə iki azad ticarət və sənaye zonasının, eləcə də gömrük-keçid məntəqələrinin fəaliyyətinin mühüm əhəmiyyət daşıdığını bildirib. Ali Məclisin Sədri deyib ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında həyata keçirilən səfərlər, iqtisadi, mədəni, təhsil və energetika sahələrindəki əlaqələr, hər iki tərəfdən dövlət qurumlarının qarşılıqlı fəaliyyəti və Araz çayından səmərəli istifadə uğurlu əməkdaşlığın nəticəsidir.

Ali Məclisin Sədri əminliyini bildirib ki, Araz Azad Ticarət və Sənaye Zonasının nümayəndə heyətinin muxtar respublikaya səfəri əlaqələrin inkişafı baxımından səmərəli olacaqdır.

Möhsün Nəriman Ali Məclisin Sədri ilə görüşdən və Naxçıvana səfərindən məmnunluğunu ifadə edib, göstərilən xoş münasibətə görə minnətdarlığını bildirib. Əlaqələrin müxtəlif sahələrdə inkişafı üçün imkanların və qarşılıqlı marağın olduğunu deyən qonaq Araz Azad Ticarət və Sənaye Zonasının bu işdə rolunu vurğulayıb. Möhsün Nəriman Şərqi Azərbaycan Vilayətinin valisi Məhəmmədrza Purməhəmmədinin salamlarını Ali Məclisin Sədrinə çatdırıb.

Ali Məclisin Sədri Şərqi Azərbaycan Vilayətinin valisinin salamlarına görə təşəkkür edib, onun da salamlarını Məhəmmədrza Purməhəmmədiyə çatdırmağı xahiş edib.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom görüşdə iştirak edib.

*Bəhram Qasemi:*

## Ermənilərin Azərbaycan əleyhinə şüar qaldırmaları yolverilməzdir və özbaşınalıqdır



Ermənistanın baş nazirinin İrana səfəri zamanı Tehrandakı "Ararat" klubunda keçirdiyi görüşdə ermənilərin Azərbaycan əleyhinə şüar qaldırmaları yolverilməzdir və özbaşınalıqdır.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu sözləri İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Bəhram Qasemi keçirdiyi həftəlik mətbuat konfransında deyib.

B.Qasemi qeyd edib ki, İranın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi aydındır. Rəsmi Tehran münaqişənin sülh yolu ilə beynəlxalq prinsiplər çərçivəsində həll olunmasına tərəfdardır. İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

İki ölkə arasındakı münasibətlərə toxunan B.Qasemi nəzərə çatdırıb ki, Azərbaycan və İran xalqları ortaq tarixə, mədəniyyətə, adət-ənənəyə malikdirlər. Bu gün Tehran ilə Bakı arasındakı əlaqələr bütün sahələrdə yüksələn xətlə inkişaf edir. Hər iki dövlətin prezidenti siyasi iradə nümayiş etdirərək əlaqələri inkişaf istiqamətinə yönəldib. Birgə iqtisadi layihələr, beynəlxalq təşkilatlar çərçivəsində yaxın əməkdaşlıq münasibətlərin mehriban qonşuluq və dostluq əsasında qurulduğunu göstərir.

İran bütün qonşuları ilə yaxşı münasibətdə olmağa çalışır və regionda sülhün və təhlükəsizliyin davamlı xarakter daşımasında maraqlıdır.

Prezident İlham Əliyev:

# Azərbaycan İslam dəyərlərinin təbliği baxımından çox vacib rol oynayır

**Azərbaycan İslam dəyərlərinin təbliği baxımından çox vacib rol oynayır. Biz Avropa paytaxtlarında müxtəlif beynəlxalq tədbirlər - təqdimat və sərgilər təşkil edərək, qədim İslam mədəniyyətini təbliğ edirik. Azərbaycan islamofobiya və İslamı terrorçuluqla əlaqələndirmə əleyhinə ən fəal mübarizə aparan ölkələrdəndir. Yəni, regionumuzu daha təhlükəsiz etmək üçün bizim müsəlman dünyasında birliyə ehtiyacımız var.**

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 80-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2017-ci il mayın 5-də IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılış mərasimindəki nitqində səsləndirib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin may-iyun aylarını əhatə edir.

Kitaba Prezident İlham Əliyevin IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış və bağlanış mərasimlərində iştirakına, XXIII Azərbaycan Beynəlxalq Qida Sənayesi və XI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanışlığına dair materiallar, XXIV Beynəlxalq "Xəzər neft və qaz-2017" sərgi və konfransının açılış mərasimində nitqinin mətni, həmçinin VII Xəzər Beynəlxalq "Energetika və alternativ enerji" sərgisinin açılışında iştirakı haqqında informasiya daxil edilib.

Nəşrdə dövlətimizin başçısının Ərəb-İslam-Amerika Sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanı Krallığına, habelə Polşaya səfərləri, Azərbaycana səfər etmiş Moldova Prezidenti ilə apardığı danışıqlar barədə materiallar, imzalanan sənədlər, dövlət başçılarının mətbuata bəyanatları haqqında informasiyalar toplanıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Kitabda Prezident İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının rəsmi mətbuat orqanı olan "OIC Journal"da dərc edilmiş "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" sərlövhəli məqaləsi verilib.

Çoxcildliyin 80-ci kitabında Prezident İlham Əliyevin İordaniya, Səudiyyə Ərəbistanı, Niderland, Birləşmiş Ərəb Əmirlikləri, ABŞ və digər dövlətlərin, beynəlxalq təşkilatların ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallar da yer alıb.

Oxucular bu kitabda ölkə başçısının Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfəri zamanı sakinlərlə görüşünü, burada yeni inşa olunmuş 96 şagird yerlik məktəblə, həmçinin məscidlə, kənddə aparılan bərpa işləri ilə tanışlığını, eləcə də Şirvan şəhərinə səfərini əks etdirən materiallarla tanış ola bilərlər.

Nəşrdə Azərbaycan Prezidentinin Bakının Yasamal rayonunda yeni tikilən yolların açılışı, Qaradağ rayonunda SOCAR-ın "Caspian Drilling" şirkətinin




dəniz təchizat və logistika bazasında Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışı, Xəzər Dəniz Gəmiçiliyi Donanmasının "Qubadlı" və "Cəbrayıl" gəmilərinin istismara verilməsi mərasimlərində iştirakı barədə informasiyalar toplanıb.

Prezident İlham Əliyevin "Bakı Ürək Günləri" V Beynəlxalq Konqresinin iştirakçılarına məktubu və digər məktubları da bu nəşrə daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 80-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Maştağa qəsəbəsi sakinlərinin problemləri dinlənilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun Sabunçu rayonu, Maştağa qəsəbəsinin sakinləri ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüş sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə təşkil olunub.

Görüşdə çıxış edən Eldar Əzizov Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi sakinlərlə ilk görüşünü məhz böyük tarixə malik Maştağa qəsəbəsində keçirdiyini bildirib.

Bu gün paytaxtımızın sürətlə inkişaf etdiyini, onun müasir görkəm aldığını vurğulayan icra hakimiyyətinin başçısı bildirib ki, Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamların, qəbul olunmuş Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində Bakı şəhəri və onun qəsəbələrində xeyli



sayda yeni məktəb, uşaq bağçası, tibb müəssisələri tikilib, köhnələri əsaslı təmir olunub. Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilən "Abad məhəllə" layihəsi çərçivəsində son 6 ay ərzində 50-dən çox məhəllə əsaslı təmir olunub və bu işlər hazırda da davam etdirilir. Həmçinin paytaxtımızdakı çoxmənzilli binaların dam örtükləri, girişləri, fasadları əsaslı təmir olunur. "Dövlətimizin başçısı qarşıya paytaxtın qəsəbələrinin də daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq qoyub. Prezident İlham Əliyevin tapşırığı əsasında Bakı şəhəri və onun qəsəbələrinin inkişafı ilə bağlı xüsusi proqram hazırlanır", - deyə icra başçısı vurğulayıb.

Azərbaycan Prezidenti tərəfindən əhalinin sosial təminatının gücləndirilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində imzalanan yeni fərman və sərəncamlar barədə danışan icra başçısı bildirib ki, dövlətimizin başçısının həyata keçirdiyi sosial siyasətin, bu istiqamətdə atılan hər bir addımın təməlində vətəndaş amili dayanır.

Sonra Sabunçu Rayon İcra Hakimiyyəti başçısının Maştağa qəsəbəsi üzrə nümayəndəsi Şamil Alıyev qəsəbədə görülmüş işlərlə bağlı hesabat məruzəsi ilə çıxış edib. Qeyd edib ki, dövlətimizin başçısının düşünülmüş siyasəti sayəsində Azərbaycan sürətlə inkişaf edir, yeni sənaye sahələri yaradılır, insanların rifah halı gündən-günə yaxşılaşır.

Maştağanın Sabunçu rayonunun ən böyük qəsəbələrindən biri olduğunu bildirən Şamil Alıyev buradakı mövcud infrastruktur obyektləri, tarixi abidələr barədə ətraflı məlumat verib. Bildirib ki, son illər bütün ölkə ərazisində olduğu kimi, qəsəbədə də təhsil, səhiyyə, sənaye və digər sahələrdə mühüm nailiyyətlər əldə edilib.

"Açıq mikrofon" formatında sakinlərin böyük fəallığı ilə keçən görüşdə çıxış edən maştağalılar Bakı şəhərində, eyni zamanda, Maştağa qəsəbəsində görülən işlərə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirib, dövlətimizin başçısının həyata keçirdiyi siyasi kursa dəstək ifadə ediblər.

Görüşdə 35 nəfər sakin çıxış edib, onları narahat edən məsələlər dinlənilib və müvafiq tapşırıqlar verilib.

Bu kimi görüşlərin digər qəsəbələrdə də keçirilməsi nəzərdə tutulub.

## Fikrət Məmmədov İmişlidə vətəndaşları qəbul edəcək



Prezident İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov martın 7-də İmişli rayonunda vətəndaşların qəbulunu keçirəcək.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İmişli regional ədliyyə idarəsində (ünvan: İmişli şəhəri, S.Qazıyeva küçəsi, bina 12a) keçiriləcək qəbulda İmişli, Sabirabad və Saatlı rayonlarında yaşayan vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılacaq.

Vətəndaşlar qəbula İmişli regional ədliyyə idarəsi (əlaqə telefonu: (02124) 6-26-94, 050 449-59-57), habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları, contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə yazıla bilərlər.

Eyni zamanda, vətəndaşların rahatlığı üçün ədliyyə nazirinin həmin gün keçiriləcək qəbuluna elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə Ədliyyə Nazirliyinin elektron xidmətlər portalına (eximet.justice.gov.az) müraciət etmək lazımdır.

*Səməd Seyidov:*

## AŞPA ölkələrində problemlərin araşdırılması və həllində hər hansı üzvün hədəf seçilməsi qəbulolunmazdır



Azərbaycan Prezidentinin apardığı uğurlu xarici siyasət ölkəmizin həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əsas mehvərdir. Bəzi təşkilatlarda, eləcə də AŞPA-da bir qrup insan anti-Azərbaycan mövqeyi tutaraq, qeyri-obyektiv münasibətləri ilə ölkəmizin imicinə xələl gətirmək istəyirlər. AŞPA-nın hüquq məsələləri və insan hüquqları komitəsində çirkli pulların yuyulmasına dair mövzu gündəlikdə əks olunsa da, icraata qəbul edilməyib və yekdilliklə gündəlikdən çıxarılıb.

Bu fikirləri AŞPA-nın komitə iclasında iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində söyləyib.

O bildirib ki, Azərbaycan nümayəndə heyətinin apardığı iş nəticəsində martın 4-də Parisdə AŞPA-nın komitə iclasında yuxarıda adıçəkilən məsələ gündəlikdən çıxarılıb. "AŞPA-nın üzv ölkələrində problemlərin araşdırılması və onların həll olunmasında hər hansı bir ölkənin hədəf seçilməsi qəbulolunmazdır. Bütün məsələlər ümumi kontekstdə müzakirə edilməlidir", - deyə S.Seyidov diqqətə çatdırıb.

Nümayəndə heyətimizin rəhbəri vurğulayıb ki, AŞPA-nın əsas problemlərindən biri daxilində ikili standartları müəyyən edib aradan qaldırmaq istiqamətində səylər göstərməməsidir: "Bu gün ölkəmizə qarşı bu qərəzli məruzənin gündəlikdən çıxarılmasının həm qlobal problemlərin həllinə, həm də AŞPA-nın ikili standartlardan can qurtarmasına yardımçı olacağına ümid edirəm".

## Estoniyada Ermənistanın növbəti təxribatının qarşısı alınıb



Estoniyada keçirilən kitab sərgisində Ermənistanın həyata keçirmək istədiyi növbəti təxribatın qarşısı Azərbaycanın bu ölkədəki səfirliyi tərəfindən alınıb.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, Estoniyanın Milli Kitabxanasında keçirilən kitab sərgisində Azərbaycanın ərazi bütövlüyünü təhrif edən yalanla dolu kitablar və xəritələr səfirliyimizin, eyni zamanda, Estoniyadakı Azərbaycan diasporunun nümayəndələrinin səyləri nəticəsində müsadirə edilib. Ermənistanı təmsil edən nümayəndələr bu əməllərinə görə üzrxahlıq ediblər.

Həmin sərgidə Azərbaycan və türk müəlliflərinin qondarma "erməni soyqırımı"nı ifşa edən kitabları da nümayiş etdirilir.

# YAP-ın rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi

**Martın 2-də Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında partiyanın rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirildi.**





Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bildirdi ki, son belə görüş ötən ilin dekabrında keçirilib: "Yenə də müəyyən məsələlər ətrafında fikir mübadiləsi aparmağa ehtiyac var. Artıq 2019-cu ilin üçüncü ayı başlayıb. Düşünürəm ki, 2019-cu il Azərbaycanın həyatında əhəmiyyətli il olacaq."

Əli Əhmədov qeyd etdi ki, ölkə Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında və regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının (2014-2018-ci illər) icrasının yekunlarına həsr olunmuş konfransda ötən ilin nəticələrinə qiymət verib, bütün sahələrdə əldə olunan uğurları diqqətə çatdırıb. Həmin iclaslarda cənab İlham Əliyev, eyni zamanda, ölkədə islahatların daha da dərinləşməsi ilə bağlı proqramını 2019-cu il aid hissəsini bəyan etmişdir: "Artıq neçə illərdir ki, dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə davamlı islahatlar həyata keçirilməkdədir. Bu islahatlar əsas etibarilə iqtisadi sferanı əhatə edir. Çünki ölkənin tərəqqisi, əhalinin sosial müdafiəsi ilə bağlı bütün məsələlər iqtisadi inkişafa əsaslanır. Məmnuniyyətlə qeyd etmək olar ki, iqtisadi sahədə həyata keçirilən islahatlar öz müsbət nəticəsini verməkdədir. Bunun əsasında yaradılan bazaya uyğun olaraq islahatlar sosial sferada da genişləndirilir. 2019-cu ilin əvvəlindən etibarən dövlətimizin başçısı İlham Əliyev tərəfindən biri-birindən əhəmiyyətli sərəncamlar imzalanıb. Bu sənədlər ölkədə insanların sosial rifahının yaxşılaşdırılmasına, bu istiqamətdə tədbirlərin davamlılığının təmin edilməsinə yönəlib. Minimum əməkhaqqının 180 manata çatdırılması çox ciddi addımdır. Bu artım 600 min insanın əməkhaqqına təsir edəcək. Eləcə də minimum pensiyanın, müxtəlif müavinətlərin, tələbələrin təqaüdünün, məcburi köçkünlər üçün aylıq müavinətlərin artırılması, şəhid ailələrinə qayğı və s. addımlar çox vacib sosial proqramlardır. Bütün bunlar Azərbaycan dövlətinin sosialyönümlü fəaliyyətinin mahiyyətini ifadə edir, dövlətin siyasətinin mərkəzində vətəndaş amilinin dayandığını göstərir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması, onlara diqqət və qayğının artırılması ölkə Prezidentinin siyasətinin əsas qayəsini təşkil edir. Təbii ki, bütün bu işlərin 2019-cu ildən etibarən geniş şəkildə reallaşması, geniş sosial proqramların həyata keçirilməsinə başlanılması bir tərəfdən Azərbaycan hökumətinin sosialyönümlü fəaliyyətini əks etdirirsə, digər tərəfdən Prezidentin iqtisadi islahatlarının öz bəhrəsini verdiyini sübuta yetirir. Əgər təkmil islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı daha da güclənməsəydi, bu sosial layihələri də reallaşdırmaq imkanı olmazdı. Amma əldə olunan nəticələr ondan xəbər verir ki, Azərbaycan dövləti öz üzərinə götürdüyü sosial öhdəlikləri layiqincə yerinə yetirib. Digər tərəfdən, islahatlar artıq öz bəhrəsini verir və bu hökumətə imkan yaradır ki, sosial məsələlərin həll edilməsi üçün daha böyük vəsaitlər ayırsın. Beləliklə, ölkəmizdə həyata keçirilən islahatlar daha da şaxələnməklə yeni sahələri əhatə edir."



YAP Sədrinin müavini bildirdi ki, 2019-cu ildə sosial sferada həyata keçirilən islahatlar və sosial siyasət bunlarla yekunlaşmayacaq. Bundan sonra da sosial qayğıya ehtiyacı olan təbəqələr dövlət tərəfindən diqqət mərkəzində olacaq, mümkün qədər onların həyatının yaxşılaşması üçün addımlar atılacaq: "Yeni Azərbaycan Partiyası olaraq biz hökumətin bu siyasətini geniş ictimaiyyət arasında təbliğ etməliyik. İnsanlarımız Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin sosial mahiyyətini aydın şəkildə dərk etməlidirlər. Bu siyasətin mərkəzində insan amili dayanır. Digər tərəfdən, həyata keçirilən islahatlar dövlətin qüdrətini artırır. Bundan sonra da islahatların həyata keçirilməsi sayəsində iqtisadiyyatımız daha da möhkəmlənəcək, dövlətin iqtisadi qüdrəti daha da artacaq və dövlətin vətəndaşların rifahının yüksəldilməsi istiqamətində atacağı addımları daha da genişlənəcək". Azərbaycan hökuməti bütün tədbirləri həyata keçirir ki, bu sahədə öz üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirsin. İkincisi, vətəndaşlara çatdırılan reallıq ondan ibarətdir ki, ölkəmizdə həyata keçirilən bütün işlər, dərin islahatlar mahiyyət etibarilə Azərbaycan dövlətinin qüdrətinin artırılması kimi vacib məqsədə yönəlməklə yanaşı, eyni zamanda, sosial proqramların daha geniş və əhatəli şəkildə reallaşmasına xidmət edir. Bu reallıqlar, həyata keçirilən siyasətimizin bu hədəfləri insanlara aydın şəkildə çatdırılmalıdır."

Müşavirədə YAP icra katibinin müavinləri - Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri Siyavuş Novruzov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iştirak edirdilər.

Müşavirədə YAP Sədrinin müavini Ə.Əhmədov partiyanın rayon və şəhər təşkilatlarının sədrlərinə tövsiyələrini verdi.

**Yeganə Əliyeva, Vüsal Cahanov (foto), *"İki sahil"***

# AFFA-nın hesabat konfransı






**Martın 4-də Bakıda AFFA-nın növbəti hesabat konfransı keçirilib. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, AFFA prezidenti Rövnəq Abdullayev, Azərbaycan millisinin baş məşqçisi Nikola Yurçeviç, futbol ictimaiyyətinin nümayəndələri, "Bakı-2019: Ulduzlar Finalı" ilə əlaqədar ölkəmizdə səfərdə olan məşhur veteran futbolçular və digər şəxslər iştirak ediblər.**

AFFA-nın prezidenti Rövnəq Abdullayev ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb. R.Abdullayev Azərbaycan Prezidenti İlham Əliyevin UEFA Avropa Liqasının final matçının ölkəmizdə təşkilinə dair Sərəncamının yüksək səviyyədə təşkilinə zəmin yaratdığını diqqətə çatdıraraq deyib: "Ötən il U-19 millimiz Avropa çempionatının elit raunduna yüksəlib. Həmçinin "Qarabağ" EUFA Avropa Liqasının qrup mərhələsində mübarizə aparıb. Təəssüflər olsun ki, millimiz Millətlər Liqasının pley-off mərhələsinə adlaya bilmədi. Yığmanın baş məşqçi postunda dəyişiklik edildi".




Gənclər və idman naziri Azad Rəhimov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını deyərək cari ildə ölkəmizin UEFA Avropa Liqasının final oyununa, gələn il isə Avropa çempionatının final mərhələsinin dörd matçına ev sahibliyi edəcəyini bildirib. Qeyd edib ki, bütün bunlar ölkəmizdə futbolun inkişafından xəbər verir. AFFA-nın fəaliyyətini yüksək qiymətləndirən nazir qeyd edib ki, uşaqlar üçün mütəmadi liqalar təşkil olunur. Belə tədbirlər təkcə paytaxtda deyil, bölgələrdə, cəbhəyanı ərazilərdə keçirilir. Cocuq Mərcanlıda futbol meydançası inşa edilərək istifadəyə verilib.

Sonra AFFA-nın ötənilki fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

AFFA-nın baş katibi Elxan Məmmədov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, üç gün sonra UEFA Avropa Liqasının final oyununa onlayn bilet satışına start veriləcək. Statistika göstərir ki, həmişə biletlər qısa müddətdə satılır. Buna görə də azarkeşləri fəal olmağa çağırıram. Ötən ilin sonunda UEFA tərəfindən final oyununa 1500 VIP bilet satışa çıxarıldı. Həmin biletlərin qiyməti 890 avro idi. Həmin biletlər iki həftə ərzində satıldı. Azərbaycandan 19 VIP bilet alınıb.

"UEFA Avropa Liqasının final oyunu ilə əlaqədar 20 min azarkeşin hava yolu ilə ölkəmizə gələcəyi gözlənilir. Bileti olanlar və akkreditasiyadan keçmiş mətbuat nümayəndələri ictimai nəqliyyatdan ödənişsiz istifadə edəcəklər", - deyə E.Məmmədov əlavə edib.

AFFA-nın baş katibi vurğulayıb ki, istərdik, ölkə çempionatında 10 güclü klub çıxış etsin. Klubların maliyyə mənbələri bilinsin, şəffaflıq təmin olunsun. Klublar AFFA kimi şəffaf olsunlar, maliyyə mənbələrini ictimaiyyətə göstərsinlər. Premyer Liqada iştirak üçün 2 milyon manat lazımdır. Bunu 25 faizini klublardan zəmanət kimi tələb edirik. Bu, UEFA-nın və FIFA-nın tələbidir. Bununla çempionatımızı və klublarımızı sığortalayırıq. Əsas məsələ şəffaflığın təmin olunmasıdır.

FIFA-nın Avropa ölkələri üzrə əlaqələndiricisi Byorn Vassallo ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısını yüksək qiymətləndirib. O, Azərbaycanda futbolun inkişafı istiqamətində görülən tədbirlərin əhəmiyyətindən danışıb.

Konfransda AFFA-nın maliyyə hesabatı dinlənilib və müstəqil audit tərəfindən şəffaf dəyərləndirilib.

Sonda "Bakı 2019: Ulduzlar Finalı" adlı qarşılaşmadan bəhs edən videoçarx təqdim olunub.

# ABŞ-ın yəhudi və yevangelist xristian icmasının üzvləri Azərbaycandakı multikultural mühit barədə məlumatlandırılıb

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı martın 4-də ölkəmizdə səfərdə olan ABŞ-ın yəhudi və yevangelist xristian icmasının üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Dövlət Komitəsinin sədri ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, tolerantlıq mühiti, DQİDK-nın fəaliyyət istiqamətləri barədə danışıb. Bildirib ki, bu gün dinlər və sivilizasiyalararası dialoqun baş tutması üçün əsas şərtə çevrilən və mütərəqqi dünya tərəfindən başlıca demokratik dəyərlərdən biri kimi təbliğ olunan tolerantlıq və multikulturalizm Azərbaycan xalqının əsrlərboyu formalaşan və çoxları üçün örnək olan xarakterik xüsusiyyətidir. Müstəqilliyimizin bərpasından sonra ölkəmizdəki dini dözümlülük, tolerantlıq mühiti və mədəniyyəti ümummilli liderimiz Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq daha da möhkəmlənib, bu sahədə dövlət siyasətinin prioritet istiqamətinə çevrilib. Azərbaycanda dini etiqad azadlığının qanunla təsbit edildiyini diqqətə çatdıran Mübariz Qurbanlı



ölkəmizdə 32-si qeyri-islam təməyüllü olmaqla 908 dini qurumun dövlət qeydiyyatından keçdiyini deyib. O, formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər sayəsində respublikamızda 14 kilsə, 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edib. Mütəmadi olaraq müxtəlif dinlərə məxsus ibadətgahların inşa və bərpa edildiyini, dini icmalara maliyyə yardımları ayrıldığını deyib.

Prezident İlham Əliyevin Azərbaycanda 2016-cı ili "Multikulturalizm İli", 2017-ci ili isə "İslam Həmrəyliyi İli" elan etdiyini bildirən komitə sədri Qafqaz Müsəlmanları İdarəsi ilə birgə müxtəlif yerli və beynəlxalq tədbirlər təşkil olunduğunu qeyd edib. Bu istiqamətdəki işin davamı olaraq sabah Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda keçiriləcək beynəlxalq konfransın əhəmiyyətinə toxunan komitə sədri Azərbaycanın hazırda dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini bildirib.

Görüş zamanı Azərbaycan həqiqətləri barədə danışan Mübariz Qurbanlı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş torpaqlarımızda dini-tarixi abidələrin məhv edildiyini, bir qisminin isə erməniləşdirildiyini diqqətə çatdırıb.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer vurğulayıb ki, Azərbaycan nümunəvi dinlərarası dialoq, birgəyaşayış modeli sərgiləyir və bu, təqdirəlayiq haldır. O, bu fikirləri Prezident İlham Əliyevlə görüşdə məmnuniyyətlə dilə gətirdiyini qeyd edib. M.Şnayer bu mühitin qorunması, təbliğ və təşviq edilməsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xüsusi rolu olduğunu deyib.

İqls Vinqs yevangelik təşkilatının icraçı direktoru, yepiskop Robert Störns Azərbaycanda mövcud olan dinlərarası harmoniyanın, qarşılıqlı etimad mühitinin, bu sahədə əldə edilən nailiyyətlərin artıq bütün dünyada etiraf edilən həqiqət olduğunu bildirib.

Sonda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə vandalizm hərəkətlərinə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim olunub.

# Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının rifahı dayanır

**Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzovun www.yap.org.az saytına müsahibəsi**

***- Siyavuş müəllim, Prezident İlham Əliyev iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə bildirdi ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır. Siz bunu necə şərh edərdiniz?***

- Azərbaycanda aparılan iqtisadi islahatlar, şəffaflaşdırma siyasəti büdcə gəlirlərinin, maliyyə imkanlarının artmasına şərait yaradıb və Prezident İlham Əliyev ilk növbədə bu vəsaitlərin məhz sosial sferaya yönəldilməsini təmin edib. 2019-cu ildə sosial sahədə atılan addımlar həyata keçirilən böyük sosial paketin tərkib hissəsidir. Bu addımlar cənab Prezident İlham Əliyev tərəfindən hələ ötən il müxtəlif tədbirlərdə anons edilib və hazırda onun reallaşdırılması prosesi gedir.

Bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Azərbaycan hakimiyyətinin yürütdüyü sosial siyasət həqiqətən də inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının rifahı dayanır. Bildiyiniz kimi, hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir. Şəhid ailələrinin müavinətləri 242 manatdan 300 manata qədər artırıldı. Bu günə qədər 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilib. Bu il minimum əməkhaqqı 38 faiz artırılaraq 130 manatdan 180 manata qaldırıldı. Eləcə də dövlət qulluğunda çalışan insanların əməkhaqlarının artırılması nəzərdə tutulub. Bir sözlə, əhalinin bütün təbəqələrini əhatə edən bütün bu addımlar insanların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

***- Ölkə başçısı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzaladı. Bu Fərmanın əsas mahiyyəti nədən ibarətdir?***

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman çox mühüm əhəmiyyətə malikdir. Heç kimə sirr deyil ki, bu gün dünyada çox mürəkkəb proseslər və böyük iqtisadi dəyişikliklər müşahidə edilir. Dəfələrlə qeyd etmişəm ki, neftin qiymətinin aşağı düşməsi və artması iqtisadi proseslərin deyil, siyasi proseslərin nəticəsidir. Təbii ki, bəzi dövlətlər də bundan sui-istifadə edir və nəticədə bunun əziyyətini bir çox ölkələrin vətəndaşları çəkir. Bütün bu proseslərin fonunda devalvasiyaya ən az məruz qalan məhz Azərbaycan manatı oldu. Çünki rus rublu, türk lirəsi, Çin yuanında ən azı 4-5 dəfə fərqli dəyişikliklər olundu. Məsələn, Türkiyə lirəsi "1 ABŞ dolları-6 türk lirəsi" səviyyəsinə gəlib çıxmışdı. Eləcə də Avropa dövlətlərinin özündə də avronun məzənnəsi dollara nisbət kəskin şəkildə dəyişdi. Məhz bunun nəticəsində kredit götürən insanlar, xüsusilə fiziki şəxslər üçün böyük problemlər yarandı. Bu gün 10 min ABŞ dolları məbləğində götürülən kreditlərin əksəriyyəti, demək olar ki, bu və ya digər şəkildə problemi həll etməkdən ötrü götürülən kreditlər idi. Elə insanlar var idi ki, bu krediti müalicə məqsədilə, yas, toy mərasimini yola vermək üçün götürmüşdü və s. Ümumilikdə, insanlar üçün bir növ çətinlik yaranmışdı. Təbii ki, bu da Azərbaycan əhalisinin 30 faizdən çoxunu təşkil edirdi. Cənab Prezident İlham Əliyev bəhs olunan qərarı ilə bir daha göstərdi və sübut etdi ki, hər şey vətəndaşlar üçün nəzərdə tutulub, Azərbaycan dövləti öz vətəndaşının yanındadır.

Əlbəttə, Azərbaycanın iqtisadi potensialı və maliyyə imkanları belə addımların atılmasına imkan verir. Bu məsələlər seçkilər dövründən başlayaraq gündəmdə idi, sonradan isə noyabr ayında dövlət büdcəsi müzakirə olunanda buraya daxil olunmuşdu. Burada banklara da heç bir ziyan dəymədi. Çünki bu addım həm bankların sağlamlaşdırılmasına, həm də inkişafına təkan verdi. Hətta deyərdim ki, banklar da buradan qazandı və vətəndaşların da problemləri həll edilmiş oldu. Digər sahələrdə də işlər gedir ki, bu da hüquqi şəxslərlə bağlı olan məsələlərdir. Bu gün dünyanın heç bir ölkəsində belə addımlar atılmır. Mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında" 14 mart 2012-ci il tarixli Fərmanının tarixi əhəmiyyətinə toxunmaq istərdim. Həmin Fərmanla 2012-ci il iyunun 1-dən keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsinə başlandı və əmanətçilərdən müraciətlərin qəbulu müvafiq Fərmana uyğun olaraq, 31 dekabr 2012-ci il tarixində başa çatdırıldı. Bu gün nə yaradılırsa, qurulursa hamısı vətəndaşlar üçündür. Məhz buna görə də Azərbaycan xalqı, ölkə vətəndaşları Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti, atılan addımları dəstəkləyir. Bu, həm də iqtidar-xalq birliyinin bariz nümunəsidir.

***- Gürcüstan Prezidenti xanım Salome Zurabişvili region dövlətləri arasında ilk xarici səfərini Azərbaycana etdi. Bu gün iki ölkə arasındakı əlaqələri necə xarakterizə etmək olar?***



- Bu gün Gürcüstan ilə Azərbaycan arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq mövcuddur. Bizim iqtisadi layihələrimizin böyük əksəriyyəti Gürcüstan üzərindən keçməklə dünya bazarına çıxarılır. Təbii ki, bundan Gürcüstan kifayət qədər vəsait əldə edir. Orada yeni iş yerləri açılır və vətəndaşlar işlə təmin olunurlar. Eyni zamanda, Gürcüstanla Azərbaycan bir-biri ilə səmimi qonşuluq münasibətlərini qoruyub saxlayırlar. Bəzi hallarda bu məsələləri qarışdırmaq istəyənlər olur. Məsələn, Gürcüstanın Axalkalaki rayonunun Buğaşen kəndində erməni hərbçi Mixail Avaqyana abidənin qoyulması kimi əməllərlə təxribat yaratmaq istəyirlər. Ümumilikdə artıq onlar da başa düşürlər ki, Gürcüstan-Azərbaycan-Türkiyə birlikdə böyük layihələr həyata keçirirlər. Bu gün Gürcüstan və Azərbaycanın turizm sektorundan hər iki ölkə faydalanır və gəlir əldə edir. Eləcə də Azərbaycanın istehsal etdiyi müəyyən məhsullardan Gürcüstan istifadə edir. Bu baxımdan, əlaqələr qarşılıqlı faydalı xarakter daşıyır. Orada azərbaycanlılar kifayət qədər kompakt halda yaşayırlar və fəaliyyət göstərirlər. Onlar Gürcüstan dövlətinə bu günə kimi hər hansı bir problemlər yaratmayıblar. Hətta deyərdim ki, onlar Gürcüstan dövlətinin nümunəvi vətəndaşlarıdır. Soydaşlarımız həm seçkilərdə fəal iştirak edirlər, həm də kənd təsərrüfatı məhsullarının istehsal olunmasında aktiv rola malikdirlər. Bir sözlə, azərbaycanlılar Gürcüstanda nümunəvi vətəndaşlıq nümayiş etdirirlər.

***- Bu yaxınlarda Azərbaycan daha bir mötəbər tədbirə ev sahibliyi edəcək. "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda təşkil olunacaq beynəlxalq konfransın əhəmiyyəti barəsində nə deyə bilərsiniz?***

- Azərbaycanın nüfuzlu, mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi artıq ənənə halını alıb. Ölkəmizdə indiyə qədər qlobal əhəmiyyətli çox mühüm tədbirlər keçirilib. Heydər Əliyev Fondu bu məsələlərdə çox yaxından iştirak edir və bu işlərin böyük hissəsinə rəhbərlik edir. Azərbaycanda "Bakı prosesi" çərçivəsində sivilizasiyalararası dialoqla bağlı tədbirlər keçirilir. Ümumiyyətlə, ölkəmiz bu baxımdan mütərəqqi nümunə yaradıb. Ölkəmizdə qanunla qadağan olunmayan bütün dinlər azad şəkildə fəaliyyət göstərirlər. Dövlət tərəfindən onlara daimi olaraq diqqət və qayğı göstərilir. Baxmayaraq ki, Azərbaycanda din dövlətdən ayrıdır, amma bununla yanaşı ölkəmizdə tolerantlıq, dini dözümlülük mövcuddur. Avropada və dünyanın hər bir yerində keçirilən konfranslarda da bu məsələlər öz əksini tapmaqdadır. Azərbaycanda məscidlərlə yanaşı, kilsələrin, sinaqoqların, digər ibadət yerlərinin təmirini, tikintisini dövlət həyata keçirir. Eləcə də ayrı-ayrı dini icmalara dövlət büdcəsindən vəsaitlər ayrılır və onların tam azad, sərbəst şəkildə fəaliyyəti təmin olunur.

***- Ermənistan rəhbərliyinin danışıqlar prosesinin formatının dəyişdirilməsi barədə iddiaları qəsdən danışıqları dalana dirəmək və danışıqlar prosesini pozmağa xidmət edir. Bu cəhdlər nədən xəbər verir?***

- Bu gün Ermənistanda hakimiyyətə gələn qüvvələr hələ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlara hazır deyillər. Onlar, ümumiyyətlə, idarəçilikdə olmayıblar. Küçələrdə, meydanlarda olmaq başqa, dövlətin idarə olunması, dövlətin problemlərinin həll olunması, iqtisadiyyatın inkişafı, sosial vəziyyətin yaxşılaşdırılması tamam başqadır. Bu gün Ermənistan rəhbərliyində təmsil olunan insanların nə təcrübəsi, nə də bu sahədə hər hansı bir bilgisi var. Ona görə də Ermənistanın baş naziri Nikol Paşinyan bu və ya digər şəkildə vaxtı uzadır. Ona görə də danışıqların formatının dəyişdirilməsi, qondarma "Dağlıq Qarabağ"ın burada tərəf kimi iştirakını ortaya atmaqla vaxt uzatmaq istəyir. İkincisi isə, oradakı hakimiyyətin taleyi hələ qeyri-müəyyəndir. Çünki verilən vədlər yerinə yetirilmir, əhalinin güzəranı getdikcə pisləşir və insanlar ölkəni tərk edir. Hər il yüz mindən artıq insan Ermənistanı tərk edir, insanlar işsizlikdən əziyyət çəkirlər, ölkədə ciddi demoqrafik problemlər hökm sürür. Keçmişdə dövlət vəzifəsində olanlar artıq həbs edilir. Çünki onların kifayət qədər cinayət əməlləri var. Paşinyan onlardan pul qoparmaqla dövlət büdcəsini formalaşdırmaq istəyir. Çünki onun başqa yerdən gəliri yoxdur. Xarici dövlətlərin verdiyi qrantlar, yardımlar hesabına, heç olmasa, əhalinin gəlirlərini təmin etməyə çalışırlar. Bu da uzağı bir il çəkəcək və yenidən Ermənistan indi olduğundan daha ciddi iqtisadi böhranla qarşı-qarşıya qalacaq.

***- Xaricdəki antimilli dairələr, qruplar tərəfindən ölkəmizə qarşı "söyüş kampaniyası" davam etdirilir. Sizcə, bunun qarşısının alınması istiqamətində hansı mexanizmlər tətbiq olunmalıdır?***

- Bu gün xaricdən ölkəmizə qarşı davam etdirilən "söyüş kampaniyası" həm hüquqi müstəvidə, həm də Azərbaycan vətəndaşlarının ictimai qınağı vasitəsilə aradan qaldırılır. Təbii ki, söyüş kampaniyasında olanlar heç öz doğma valideynlərini eşitmirlər. Xarici təşkilatlar qrantları məhz o söyüşə görə verirlər. Çünki onlarda hər hansı bir təhlil aparmaq, təklif vermək qabiliyyəti və hər hansı bir məsələyə normal münasibət bildirmək düşüncəsi yoxdur. Bunlar Dağlıq Qarabağda törətdiyi cinayətlərə, soyqırımlarına görə Ermənistana qarşı bir kəlmə də olsun fikir söyləməyiblər. Əgər fikir söyləsələr, dərhal qrantları kəsiləcək. Onların hətta Ermənistanı təbliğ edərək guya orada demokratik ab-havanın yüksək səviyyədə olması barədə absurd fikirlər söyləmələri və insanlara müraciət etmələri Azərbaycan xalqı tərəfindən hiddətlə qarşılanır. Bu şəxslər öz çıxışlarında antidövlət xarakterli fikirlər (silah yolu ilə üsyan, çevriliş etmək və s.) səsləndiriblər. Təbii ki, bunlar hamısı Cinayət Məcəlləsinə tövsif olunur. Bu məsələ ilə əlaqədar Azərbaycan Respublikasının Prokurorluğu cinayət işi qaldırmalıdır və İnterpol vasitəsilə həmin adamların tutulub gətirilməsi təmin olunmalıdır. Necə ki, bu proses artıq davam edir. Eləcə də onların Azərbaycan məhkəmələri qarşısında cavab verməsi təmin olunmalıdır. İkincisi, həmin ölkələrdə fəaliyyət göstərən və Azərbaycanda olan səfirliklərə müraciət olunmalıdır. Soruşulmalıdır, əgər onların hər hansı bir vətəndaşı Azərbaycan ərazisindən öz dövlətlərinə qarşı "söyüş kampaniyaları" apardılarsa, onlar hansı addımı atardılar? Hesab edirəm ki, bu məsələlər onların diqqətinə çatdırılmalıdır. Üçüncü yol isə ictimai qınaqdır. Azərbaycan xalqı kifayət qədər savadlı xalqdır. Azərbaycanın kifayət qədər tanınmış insanları var. Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü oldu. Orada qaldırılan məsələlərin hər biri dərhal öz həllini tapdı. Amma bu günə qədər xaricdə oturanlar hələ bir məsələ qaldırmayıblar. Onların ağızları söyüşlə açılıb-bağlanır, o şəxslər həqiqətə uyğun olmayan fikirlər səsləndirirlər. Xaricdən ölkəmizə gələnlərin hər biri görür ki, Azərbaycanda nə qədər inkişaf vardır. Heç şübhəsiz ki, onların burada oturan əlaltıları - "sapı özümüzdən olan baltalar" da qaldırılan məsələlərin öz həllini tapmasına görə əndişələnirlər.

Əfv olunacaq şəxslərlə bağlı artıq Əfv Komissiyası işləyir. Siyasi baxışlarından asılı olmayaraq cinayət törətmiş şəxslər bu və ya digər şəkildə öz peşmançılıqları ilə əlaqədar müraciət edirlər. Əfv Komissiyası bu məsələlərə baxır. Ümumiyyətlə, ölkəmizdə ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanda bu addımlar davamlı olaraq atılıb. 70-dən artıq əfv, 13-ə yaxın amnistiya aktı qəbul olunub. Sonuncu amnistiya aktı da ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul olunmuşdu ki, bu da 10 mindən artıq insana şamil edilmişdi. Yəni bunlar hamısı Azərbaycanda olub. Onları narahat edən nədir? Bunlar o adamların adından və ailə üzvündən istifadə edirlər. Amma həmin insanlar azadlığa çıxdığı halda onlarla maraqlanmırlar. Çünki onlar bu məsələlərdən gəlir əldə etmək üçün istifadə edirlər. Məsələn, keçmişdə Leyla Yunus və bir qrup hüquq-müdafiə təşkilatları var idi ki, onlar bu və ya digər şəkildə cinayət törətmiş şəxslərdən pul alaraq guya onların adını "siyahı"ya salaraq "siyasi məhbus" adı altında Avropaya, başqa-başqa yerlərə göndərəcəkdilər. Hətta bundan sui-istifadə edən bəzi vəkillər də var idi. Onlar şantaj yolu ilə insanların guya azadlığa buraxılmasına çalışmaq istəyirdilər. Həmin metod bu gün Azərbaycanda müxtəlif qurumların və siyasi partiya rəhbərlərinin "çörək ağacı"na çevrilib. Bu məsələ də yaxın vaxtlarda Azərbaycanda öz həllini tapacaq. Onlar qəsdən qızışdırırlar ki, dövlət buna getməsin. Çünki dövlətin bu cür addımlar atması onlara sərf etmir.

# Davamlı, sistemli islahatlar Azərbaycanın iqtisadi qüdrətini və əhalinin sosial rifahını daha da yüksəldib

## Milli Məclisin deputatı Bəxtiyar Sadıqovun www.yap.org.az saytına müsahibəsi

***- Bəxtiyar müəllim, 2019-cu ilin ötən dövrü ölkəmizdə mühüm ictimai-siyasi hadisələrlə zəngindir. Bunlardan biri də Prezident İlham Əliyevin şəhid ailələrinin üzvləri ilə görüşüdür. Bu görüş cəmiyyətə hansı mesajı verdi, ictimaiyyət tərəfindən necə qarşılandı?***

- Bu görüş Azərbaycanda ictimaiyyətin bütün təbəqələri tərəfindən böyük rəğbətlə qarşılandı. Cəmiyyətimizin vətənpərvərlik hissinin daha da güclənməsinə xidmət etdi. Şəhid ailələrinin timsalında hər kəs bir daha əmin oldu ki, güclü Azərbaycan dövləti kimi dayağı var.

Dövlət, xalq onda böyük sayılır ki, onun uğrunda canından keçənləri olur. Bu mənada xalqımızın başını uca tutmağa, qürur hissi keçirməyə tam mənəvi haqqı var. Biz sovet hakimiyyətinin çətiri altında birləşdirilmiş digər xalqlardan fərqli olaraq azadlığımızı rahatlıqla əldə etmədik. Bu yol xalqımız üçün hamar olmadı, enişlərdən-yoxuşlardan, dolanbaclardan keçdik, torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə minlərlə vətən övladı silaha sarıldı, qan tökdülər, canlarını fəda etdilər.

Şəhidlərimizin canlarını qurban verdikləri Azərbaycan indi sayılıb-seçilən, müstəqil siyasət yürüdən, heç bir kənar qüvvədən asılı olmayan dövlətdir. Şəhidlərin vaxtilə sıralarında vuruşduqları ordu isə indi dünyanın ən qüdrətli silahlı qüvvələri sırasında yer alıb.

Şəhidlərimizin ruhu həm də ona görə rahatdır ki, əmanət qoyub getdikləri doğmalarının - valideynlərinin, övladlarının yanında qüdrətli Azərbaycan dövləti var. Şəhidlərin xatirəsi bizə nə qədər əzizdirsə, onların əzizlərinin, ailələrinin sosial rifahı, mənzil-məişət şəraiti də bir o qədər dövlətimiz üçün əzizdir və daim diqqət mərkəzində saxlanılır. Bu sahədə ən gözəl nümunələri isə Azərbaycan Prezidenti cənab İlham Əliyev ortaya qoyur.

Hələ ötən ilin aprelində seçkilərdə xalqın birmənalı dəstəyini qazanaraq Prezident seçilən cənab İlham Əliyevin ilk Fərmanının məhz şəhid ailələri ilə bağlı olması dövlət başçısının şəhidlərin əziz xatirəsinə dərin ehtiramının və şəhid ailələrinə qayğısının təzahürüdür. 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmana əsasən şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutuldu. Bu Fərman həmin ailələrin sosial müdafiəsinin yaxşılaşdırılmasının dövlət başçısının sosial siyasətinin başlıca məqsədlərindən biri olduğunu təsdiq etdi, ictimaiyyət tərəfindən böyük rəğbət və məmnunluqla qarşılandı.

Bu il yanvar ayının 28-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri ilə görüşü və 11 min manat məbləğində birdəfəlik ödəmə alacaq vətəndaşların sayının artırılması barədə yeni Fərmanı cənab İlham Əliyevin böyüklüyünü, şəhidlərimizə və onların ailə üzvlərinə olan ehtiramını bir daha sübut etdi. Bu görüş həmin ailələrə yüksək səviyyədə diqqət və qayğının növbəti sübutu kimi Azərbaycan ictimaiyyəti tərəfindən rəğbət və minnətdarlıqla qarşılandı.

Qeyd edim ki, ölkədə şəhid ailələrinin, o cümlədən döyüşlərdə əlil olmuş şəxslərin sosial rifahının daha da yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirilir. Belə ki, indiyədək bu statusu daşıyan vətəndaşlara dövlət tərəfindən 6 min 654 mənzil verilib. Təqdirəlayiqdir ki, təkcə ötən il şəhid ailələrinə və müharibə əlillərinə planlaşdırıldığından 3 dəfə artıq - 626 ev verilib. Bu il həmin vətəndaşlara təxminən 800 mənzil verilməsi nəzərdə tutulur.

Şəhid ailələrinə verilən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün məbləği də ötən dövrdə mütəmadi olaraq artırılıb. Sonuncu dəfə yanvarın 30-da Prezident İlham Əliyev bu barədə müvafiq Fərmanı imzalayıb. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında" Fərmana əsasən, şəhid ailələrinə verilən Prezident təqaüdünün aylıq məbləği 58 manat artırılaraq 300 manat müəyyən edildi.

Şəhidlər bizim müqəddəs and yerimiz, qürur mənbəyimizdir. Onlar heç vaxt unudulmayacaq, həmişə minnətdarlıq duyğuları ilə yada salınacaq, xatirələrinə dərin ehtiram bəslənləcək. Bu, indi də belədir, sabah da belə olacaq. Bu mənada Prezident İlham Əliyevin şəhid ailələri ilə səmimi görüşü şəhidlərin əziz xatirəsinə ehtiramın böyük nümunəsi idi. Bununla, həm də bir həqiqət növbəti dəfə öz təsdiqini tapdı ki, Prezident İlham Əliyevin sayəsində şəhid ailələri haqlı olaraq ən yüksək dövlət qayğısı ilə əhatə olunublar.

***- Ötən ay Prezident İlham Əliyev ardıcıl olaraq sosial məsələləri əhatə edən sərəncamlar imzaladı. Bu barədə fikirlərinizi bilmək maraqlı olardı.***

- Dövlət də ailə kimidir. Hər bir ailənin öz gəliri olur və ailə həmin gəlirə uyğun xərclərini müəyyən edir. Yəni ailənin kommunal xərcləri, o cümlədən hər bir üzvünün qida, geyim və digər ehtiyacları var. Ailə öz ehtiyaclarına uyğun olaraq xərclərini bölür və hissə-hissə qayğılarını yoluna qoyur. Dövlət də belədir, nə qazanırsa onu xərcləyir. Ayrı-ayrı sahələrin xərclərinin ödənilməsi üçün dövlət əvvəlcə o pulu tapıb büdcəyə cəlb etməli, sonra istifadə etməlidir. Bu mənada Azərbaycan iqtidarının daim öz vətəndaşının qayğısına qaldığını, hər bir sahənin inkişafı üçün lazımi qədər vəsait ayırdığını görməmək mümkün deyil. İlk növbədə, həmişə çalışıb ki, gəlirindən, qazancından vətəndaşların sosial rifahının yüksəldilməsinə sistemli şəkildə pul ayırsın.

Biz həmişə dövlət büdcəsini müzakirə edərkən onu sosialyönümlü büdcə adlandırırıq. Bu o deməkdir ki, ilk növbədə, sosial ehtiyacların daha dolğun ödənilməsi və vətəndaşların rifahının yüksəldilməsini əsas məqsəd kimi qarşıya qoymuşuq.

Amma dövlətin inkişafı üçün də xərclər tələb olunur. Bildiyiniz kimi, indiyədək Azərbaycan qlobal enerji layihələrinin həyata keçirilməsinə sərmayələr yatırıb. Çünki ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, enerji layihələrinə çəkilən xərclər gələcəkdə qazanc şəklində dövlətə qayıdacaq. Bu siyasəti layiqincə davam etdirən Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun, Cənub Qaz Dəhlizinin çəkilməsinə nail oldu. Çünki bunların hər biri Azərbaycanın inkişafına, beynəlxalq mövqelərinin möhkəmlənməsinə, imicinin yüksəlməsinə və həm də əhalinin sosial rifahının daha da yaxşılaşmasına xidmət edir.

Lakin Azərbaycan iqtidarı bununla kifayətlənmir. Son 15 ildə ölkədə regionların tarazlı inkişafına xidmət edən 3 Dövlət Proqramı icra olunub. Bu proqramlar xüsusən qeyri-neft sektorunun inkişafını təmin edib, bütövlükdə Azərbaycan iqtisadiyyatının 3 dəfədən çox artmasına yol açıb. Salınan sənaye parkları, aqroparklar məhz bir məqsədə - inkişafa xidmət edir. İqtisadi inkişafın təmin olunması ilə yanaşı, əhalinin fasiləsiz enerji verilməsi, içməli suya olan tələbatın ödənilməsi, bütün yaşayış məntəqələrinin qazlaşdırılması son 15 ildə ölkədə həyata keçirilən inkişaf siyasətinin prioritetlərini təşkil edib. Bu illərdə yolların yenidən qurulması da diqqət mərkəzində olub. Çünki yol inkişaf deməkdir və bu məqsədlə olduqca vacib layihələr həyata keçirilib. Şərq-Qərb, Şimal-Cənub istiqamətində nəqliyyat dəhlizi yaradılıb. Gediş-gəlişi asanlaşdırmaq üçün bəzi yerlərə, hətta tarix boyu avtomobil yolu olmayan yaşayış məntəqələrinə müasir yollar çəkilib.

Yəni, bütün bunların hər biri külli miqdarda vəsait tələb edir. Lakin bu dövrdə Azərbaycan iqtidarı bütün bu vəzifələrin öhdəsindən inamla gəlib. Hər bir sahəyə lazımi qədər vəsait yönəldilib, iqtisadiyyatın inkişafı təmin olunub. O cümlədən kənd təsərrüfatının inkişafı təmin olunub, bunun üçün on minlərlə hektar yeni əkin sahəsi becərilməyə cəlb olunub, suvarma üçün yeni su anbarları inşa olunub. Bütün bunlar isə öz növbəsində insanların sosial güzəranının yaxşılaşması deməkdir. Məsələn, yeni açılan müəssisələr, təsərrüfatlar yeni iş yerlərinin yaradılmasına, məşğulluğun təmin olunmasına, yoxsulluğun aradan qaldırılmasına xidmət edir. Görünən odur ki, dövlət həm bu gün vətəndaşının qayğısına qalır, həm sabah, həm də perspektivdə. Ona görə də qarşıya qoyulan məsələlər mərhələ-mərhələ həll olunur.



Onu da qeyd edim ki, Azərbaycanda dövlət başçısı pensiyaların, müavinətlərin artırılması ilə bağlı hər il sərəncamlar verib. Son vaxtlar isə artan maliyyə imkanlarımız əhalinin digər sosial ehtiyaclarının ödənilməsinə yol açır. Təkcə fevral ayında dövlət başçısının imzaladığı sərəncamlar göstərir ki, Azərbaycan iqtidarı artan maliyyə imkanlarından ilk növbədə öz vətəndaşının sosial rifahının gücləndirilməsi üçün istifadə edir.

Minimum əməkhaqqının məbləğinin 50 manat artırılaraq 180 manata çatdırılması, əmək pensiyalarının minimum məbləğinin 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırılması, təqribən 100 minə yaxın tələbənin təqaüdünün artırılması, Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata qaldırılması, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 16 min vahid artırılması, problemli kreditlərlə bağlı məsələnin öz həllini tapması ölkədə həyata keçirilən təkmil və ardıcıl sosial siyasətin ayrı-ayrı nümunələridir.

Prezident İlham Əliyevin fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Fərmanı isə sosial sahədə atılan addımların davamı kimi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Bu onu göstərir ki, respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının qaytarılmasına da dövlət dəstəyi göstərilməsi üçün şərait yaratmışdır.

Bütövlükdə, bütün bunlar təsdiqləyir ki, dövlət öz vətəndaşının sosial rifahı üçün bütün lazımlı addımları atır. Amma əvvəldə qeyd etdiyim kimi, bunlara nail olmaq üçün, ilk növbədə, iqtisadiyyatın, gəlir gətirən sahələrin inkişafına nail olmaq lazımdır. Təbii ki, maliyyə imkanlarımız artdıqca bu sahədə növbəti addımların da şahidi olacağıq.

Bir məqamı da unutmayaq. Hazırda bizim iki vacib problemimiz var ki, onlara daim diqqət yetirməli və lazım olduğu qədər vəsait ayırmalıyıq. Bunun biri çətin şəraitdə yaşayan qaçqın və məcburi köçkünlərin yeni mənzillərlə təmin olunmasıdır. Bunun üçün külli miqdarda vəsait tələb olunur. Artıq indiyədək ölkədə 100-dən artıq yeni qəsəbə salınıb və bu iş davam edir.

İkinci sahə isə ordu quruculuğudur. Çünki Azərbaycan müharibə şəraitindədir və əsas ağrılı problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə biz daim düşməndən güclü olmalıyıq. Güclü Azərbaycan Ordusu isə danışıqlar prosesində ölkəmizin üstünlüyünü təmin edən mühüm amildir. Digər tərəfdən, Ermənistanı sistemli şəkildə silahlandırdıqlarına görə biz silahlanmaya daha çox vəsait ayırmalı və üstünlüyü daim qoruyub saxlamalıyıq.

***- Bəxtiyar müəllim, Azərbaycanın bütün uğurlarını həmişə inkar etmiş dağıdıcı müxalifət sosial məsələlərlə bağlı atılan addımları öz adına çıxmaq istəyir. Bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycanda bütün iqtisadi və sosial təşəbbüslər dövlət başçısı tərəfindən sistemli şəkildə həyata keçirilir. Əgər biz Prezident İlham Əliyevin gördüyü işləri öz adına çıxmaq istəyən Əli Kərimlinin iqtidarda olduğu dövrə nəzər salsaq görərik ki, hətta 1992-ci ildə növbəti ilin dövlət büdcəsi təsdiq olunmadı. Çünki dövlətin büdcəsi boş idi, gəliri yox idi. Əgər Əli Kərimli belə bacarıq sahibidirsə, o zaman niyə ölkəni iqtisadi böhrandan çıxara bilmədilər?

Bu cür boş-boş iddialarla çıxış etmək dağıdıcı müxalifətin köhnə vərdişidir. İkincisi isə mən təəccüblənirəm ki, nə əcəb indiyədək Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərini, Bakı-Tbilisi-Qars dəmir yolu xəttini, Cənub Qaz Dəhlizini, ordumuzun dünyanın 50 güclü ordu sırasında yer almasını, qaçqın şəhərciklərinin tikilməsini, 3 peykimizin orbitə göndərilməsini, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini Əli Kərimli öz adına çıxmayıb?! Nə əcəb, demir ki, biz bu məsələləri qaldırdıq sonra Prezident İlham Əliyev etdi. Bəlkə Ələt azad iqtisadi zonasının yaradılması təklifini də Əli Kərimli verib? Bütün bunları Azərbaycan hakimiyyəti edəndə, Prezident İlham Əliyev bu inkişafı təmin edən Dövlət proqramlarını təsdiqləyəndə, Azərbaycanı kosmik dövlətə çevirəndə, qlobal enerji və nəqliyyat layihələrinə başlayanda Əli Kərimli hardaydı? Əlbəttə, qrant axtarışında!

Əli Kərimli onsuz da bu cür gülməli iddiaları ilə xalqın qınaq hədəfinə çevrilib. Xalq bu müxalifətin dabbaqda gönünə bələddir. Birillik yarıtmaz iqtidarları ilə xalqa və dövlətə vurduqları yaraları insanlar heç vaxt onlara bağışlamayacaqdır!

# Nərgiz Paşayeva Rusiya Təhsil Akademiyasının akademiki (xarici üzvü) seçilib

***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti akademik Nərgiz Paşayeva fevralın 27-də Rusiya Təhsil Akademiyasının (RTA) üzvlərinin ümumi yığıncağında M.V.Lomonosov adına MDU-nun rektoru, akademik V.Sadovniçinin təqdimatına əsasən yekdilliklə RTA-nın akademiki (xarici üzvü) seçilib.***

http://rusacademedu.ru/news/v-rossijskoj-akademii-obrazovaniya-proshlo-obshhee-sobranie-chlenov-rao/



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Rusiya Təhsil Akademiyasının yeni, o cümlədən xarici üzvləri maksimum dərəcədə şəffaf prosedur əsasında - gizli səsvermə yolu ilə, səslərin hesablanması üçün RF Mərkəzi Seçki Komissiyası tərəfindən keçirilən ümumrusiya seçkilərində istifadə edilən qaydalara analoji olan elektron vasitələr (KOİB) tətbiq edilməklə seçilib. Yığıncağa qatılan Akademiya üzvlərinin hamısı səsvermədə iştirak edib.

Ümumi yığıncaqda 200-ə yaxın görkəmli rusiyalı və əcnəbi alim, Akademiyanın üzvləri, RF Prezidenti Administrasiyasının, RF Hökumətinin, federal nazirlik və idarələrin, RF Dövlət Dumasının nümayəndələri, RTA Qəyyumlar Şurasının üzvləri, görkəmli elm və dövlət xadimləri iştirak ediblər.

Yığıncaqda "Təhsil" və "Elm" milli layihələrinin həyata keçirilməsində Rusiya Təhsil Akademiyasının iştirakı, habelə RTA-nın inkişafına dair perspektiv planlar və ən yaxın genişmiqyaslı layihələr müzakirə edilib.

Yığıncağın ikinci hissəsində Akademiyanın yeni üzvlərinin və onun idarəetmə orqanlarının nümayəndələrinin seçkiləri keçirilib.

Professor Nərgiz Paşayeva ilə yanaşı, Li-Yanki Xannelora (Almaniya Federativ Respublikası və İsveçrə Konfederasiyasının vətəndaşı) və Fransisko Pons (İspaniya Krallığı və İsveçrə Konfederasiyasının vətəndaşı) da RTA-nın xarici üzvləri seçiliblər.

# Çağdaş mədəniyyətimizin inkişafında yeni mərhələ



Son on beş ildə ölkəmizin ictimai-siyasi və mədəni həyatında köklü dəyişikliklər baş verib, yüksəlişə nail olunub. Ölkə başçısı İlham Əliyev milli mədəniyyətin inkişafına böyük diqqət və qayğı göstərib, bu sahənin inkişafını dövlət siyasətinin əsas prioritetlərindən biri elan edib. Bu gün fəxrlə deyə bilərik ki, zəngin Azərbaycan mədəniyyəti dünyada yüksək səviyyədə, layiqincə təbliğ olunur və maraqla qarşılanır. Azərbaycan mədəniyyətinin çoxəsrlik tarixə malik incilərinin UNESCO-nun bəşəriyyətin nadir inciləri siyahısında yer alması hamımızı sevindirir. Bütün bu uğurların əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var.

Son illər milli mədəniyyətimizin təbliği, dünyada tanıdılması baxımından unikal tədbirlər həyata keçirilib. 2004-cü ilin yanvarında YUNESCO-nun iqamətgahında "Dədə Qorqud" dastanının 1500 illiyinə həsr olunmuş möhtəşəm tədbir Azərbaycan ədəbiyyatının, mədəniyyətinin layiqli təbliğinə bariz nümunə idi. Elə həmin ildə Fransa Senatının muzeyində 20 Azərbaycan rəssamının 70-dən çox əsəri nümayiş etdirildi. Ölkə başçısının Sərəncamı ilə 2005-ci ilin avqustunda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyuldu.

2008-ci il dekabrın 27-də 7500 kv. metrlik sahədə qədim musiqi alətimiz olan tarın quruluşunda, eyni zamanda, modern memarlıq üslubunda tikilmiş Beynəlxalq Muğam Mərkəzinin açılış mərasimi keçirildi, Cavad xanın qəbri üzərində məqbərə ucaldıldı. Mərdəkanda XVI əsrə aid "Pir Həsən" ziyarətgahı, Binədə "Möhsün Səlim" məscidi, Buzovnada "Cümə" məscidi, Bakıda "Müqəddəs Məryəmin miladı" kilsəsi əsaslı təmir olundu. Tbilisidə Azərbaycan aydınları Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundzadənin, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələri yenidən düzəldildi.

Ölkə başçısının Sərəncamı ilə Keşikçidağ, Yanardağ, Xınalıq, Atəşgah tarixi-mədəni qoruq kimi elan olunub. 2012-ci ildə Qobustan qoruğunun yeni inzibati binasının və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyasının açılışı oldu. Qobustan qoruğu ABŞ Dövlət Departamentinin "Muzeum Contest-2012" layihəsinə daxil edildi. Həmçinin "Qala" Dövlət Qoruğunun bazasında Qala Etnoqrafik Muzey Kompleksi yaradıldı.

2013-cü ildə Paris və Strasburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyi ilə bağlı konsert və sərgilər reallaşdı, Romada böyük mütəfəkkirin abidəsi ucaldıldı. Azərbaycan Dövlət İncəsənət Muzeyi əsaslı təmir olundu, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yeni korpusu tikilib istifadəyə verildi.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ili ölkəmizdə "Nəsimi İli" elan edilməsi də dövlətimizin başçısının görkəmli ədəbi şəxsiyyətlərin yubileylərinin keçirilməsinə, ədəbiyyatımızın bütün dünyada təbliğ olunmasına böyük önəm verməsinin bariz nümunəsidir.

Bu günlərdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bir qrup mədəniyyət və incəsənət xadimləri ilə görüşü ictimaiyyətimiz tərəfindən böyük rəğbət hissi ilə qarşılanıb. Görüşdə tanınmış yazıçıların, alimlərin, teatr xadimlərinin, musiqi və təsviri incəsənət nümayəndələrinin, memarların iştirakı ilə bu sahələrdəki problemlər, müasir Azərbaycan mədəniyyətinin gələcək inkişafı ilə bağlı məsələlər müzakirə olunub. Əslində ölkə başçısının respublikamızın görkəmli mədəniyyət xadimləri ilə həm fərdi qaydada, həm müxtəlif tədbirlərdə, mərasimlərdə, mədəniyyət ocaqlarının açılışlarında dəfələrlə görüşləri olub. Birmənalı demək olar ki, çağdaş mədəniyyətimizin yeni inkişaf mərhələsinin əsasının qoyulmasında mühüm amil olan bu görüş mədəniyyətimizin inkişafına, mədəniyyət və incəsənət xadimlərinin sosial qayğılarının həll olunmasına, onların yaradıcılıq fəaliyyətlərini daha yaxşı şəraitdə davam etdirməsinə böyük töhfələr verəcək.

**Zahid Rza,**
***İki sahil"***

*Hikmət Hacıyev:* **Sumqayıt hadisələrini təşkil edən etnik erməni Qriqoryanda bir çox sualların cavabı var**



Sumqayıt hadisələrini təşkil edən etnik erməni Qriqoryanda bir çox sualların cavabı var.

Bu barədə Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz "Twitter" səhifəsində yazıb.

H.Hacıyev bildirib: "Biz 1988-ci il Sumqayıt hadisələrinin yalançı təbliğatının şahidi olmuşuq. Qəribədir ki, Ermənistanda heç kim, hətta diaspor Eduard Qriqoryanın yerini bilə-bilə ona suallar verməyib. Sumqayıt hadisələrini təşkil edən etnik erməni Qriqoryanda bir çox sualların cavabı var".

## 3 minə yaxın mənzilə təbii qaz verilib




SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi çoxmərtəbəli binalara təbii qazın verilməsi istiqamətində fəaliyyətini davam etdirir. Görülmüş işlərin nəticəsidir ki, Birlik 2019-cu ilin yanvar-fevral ayları ərzində hüquqi və fiziki şəxslərin müraciətlərini araşdıraraq, müvafiq sənədləri təqdim olunan çoxmərtəbəli binalar üzrə təbii qazın verilməsini təmin etmişdir. Qeyd edək ki, həmin binalarda ümumilikdə 2827 ailə yaşayır.

"Azəriqaz" İB təbii qazın satışı ilə məşğul olan bir qurum kimi zəruri sənədləri təqdim etmiş, bütün normativ-texniki və təhlükəsizlik tələblərinə cavab verən istənilən çoxmərtəbəli binanın ən qısa müddətdə "mavi yanacaq"la təmin olunmasında maraqlıdır.

*Dövlət Departamenti:*

## ABŞ əvvəlki kimi Dağlıq Qarabağ münaqişəsi tərəflərinə həll yollarının axtarışına kömək etməyə sadiqdir




ABŞ əvvəlki kimi Dağlıq Qarabağ münaqişəsi tərəflərinə problemin dinc həlli yollarının axtarışına kömək etməyə sadiqdir. Bu barədə Trend-ə ABŞ Dövlət Departamentindən bildiriblər.

Dövlət Departamentindən ATƏT-in Minsk qrupunun həmsədrlərinin sonuncu bəyanatına əsaslanaraq qeyd olunub ki, Birləşmiş Ştatlar həmsədr kimi, tərəflərə Dağlıq Qarabağ münaqişəsinin dinc və davamlı həlli yollarını tapmağa kömək etmək işinə sadiq olaraq qalır.

1988-ci ildə Ermənistan Azərbaycana qarşı ərazi iddialarına başladı. Bir müddət sonra isə Ermənistan tərəfindən Azərbaycan ərazilərinə hərbi təcavüz başlandı. Dağlıq Qarabağ və ətraf 7 rayon - Azərbaycan ərazisinin 20 faizi - Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Bu işğal faktı hələ də davam edir.

1994-cü ilin mayında tərəflər atəşkəs rejiminə nail oldular. O dövrdən bu günə kimi ATƏT-in Minsk qrupunun himayəsində - Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə nəticəsiz sülh danışıqları davam edir. İşğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonların azad edilməsi haqqında BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə isə Ermənistan tərəfindən bu günədək icra olunmayıb.

## Düşmən atəşkəsi pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Cəvahirli, Sarıcalı, Mərzili, Füzuli rayonunun Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# SOCAR-ın TENDERLƏRİ



## Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

# "Azəriqaz" İstehsalat Birliyi

**manometrlərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29008-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 29.03.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:***

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur. Tətbiq olunmur*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur. Tətbiq olunmur

***V.Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 2 ay müddətində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-i.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
Əlaqələndirici şəxs:
Hüseynova Nigar
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29 164)
nigar.huseynova@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 29.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə 12:30-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X.Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

"Azəriqaz" İB-nin Satınalmalar qrupu



## Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

# "Azəriqaz" İstehsalat Birliyi

**Nömrəli plomblara, plomb üçün məftilə (Lot-1), Plastik qapayıcı plomblara (Lot-2) və Plastik qapayıcı vasitələrə (Lot-3) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29010-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır)
* Müsabiqə təklifinin təminatı (yalnız Lot-1 üzrə)

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 29.03.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər Lot-1 üzrə 236 AZN (ƏDV daxil); Lot-2 üzrə 59 AZN (ƏDV daxil) və Lot-3 üzrə 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.
* Hesab nömrəsi:

VÖEN SOCAR: 9900003871
Azərbaycan Beynəlxalq Bankı ASC, Müştəri Xidməti Departamenti,
VÖEN (bank): 9900001881
İBAN: AZ38IBAZ38010019449306332120
Müxbir hesab: AZ03NABZ01350100000000002944
SWIFT BIK: İBAZAZ2X
Kod: 805250

İştirak haqqı heç bir halda geri qaytarılmır.

***IV. Təminatlar: Lot-1 üzrə***
***Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

***Avans ödənişinə görə təminat:***
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

***Müqavilənin yerinə yetirilməsi təminatı:***
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin hər bir Lot üzrə 2 ay müddətində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
Əlaqələndirici şəxs:
Kərimov Valeh Mirzə oğlu
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994125210000 (daxili 29681)
+994124904272 (faks)
valeh.kerimov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 29.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə Lot-1 üzrə saat 11:00-da, Lot-2 üzrə saat 11:30-da, Lot-3 üzrə saat 12:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

# Daşqın İskəndərov Bakı Ali Neft Məktəbinin tələbələri ilə görüşüb




“Azneft” İstehsalat Birliyinin (İB) rəhbərliyi Bakı Ali Neft Məktəbində (BANM) olub. Ali məktəbdə tələbələrlə keçirilən görüşdə BANM-in rektoru Elmar Qasımov və professor-müəllim heyəti, “Azneft” İB-nin baş direktoru Daşqın İskəndərov, baş direktorun müavinləri Ədalət Emilnov, Mehdi Vəliyev, Cəlair Səmədov, İnsan resursları departamentinin əməkdaşları, həmçinin digər struktur bölmələrinin rəisləri iştirak ediblər.

BANM-in rektoru Elmar Qasımov bildirib ki, ali məktəbin tələbələri 2-ci kursdan başlayaraq istehsalat təcrübələrinə başlayır və “Azneft” İB-nin, eləcə də onun idarələrinin bu proqramların təşkil olunmasında rolu böyükdür.

“Azneft” İB-nin baş direktoru Daşqın İskəndərov rektor Elmar Qasımova tələbələrlə görüş imkanının yaradılmasına görə təşəkkür edib və iştirakçılara “Azneft” İB-nin fəaliyyəti, iş prinsipləri, struktur bölmələri və işlənilən layihələr haqqında məlumat verib. Daşqın İskəndərov tələbələrə böyük maddi-texniki bazaya, hər cür şəraitə malik kampusda təhsil aldıqlarına görə çox şanslı olduqlarını bildirib.

Tədbirdə, həmçinin “Azneft”in İstehsalat şöbəsinin rəisi Pərviz Əhmədov və Əmirov adına Neft-Qaz Çıxarma İdarəsinin rəisi Ramin Quliyev çıxış edərək əməkdaşlıqla bağlı təklifləri irəli sürüblər. BANM-in məzunu, hazırda “Azneft” İB-nin qazma departamentinin böyük mühəndisi Mustafa Əsgərov tələbələrlə öz uğur hekayəsini paylaşıb və müəssisədə karyera imkanları, karyera hazırlığı, inkişaf mərhələlərindən danışıb.

BANM-in sonuncu kurs tələbələri müəssisənin rəhbərliyinə istehsalat təcrübəsi və karyera ilə bağlı onları maraqlandıran suallar ünvanlayıblar.

Görüşün sonunda rektor Elmar Qasımov “Azneft” İB-nin baş direktoru Daşqın İskəndərova tələbələrin istehsalat təcrübələri və karyera imkanlarının yaradılmasında verdiyi töhfələrə görə təşəkkür edib və ona ali məktəbin “Fəxri qonaq” plaketini təqdim edib.

Qonaqlar, həmçinin BANM-in kampusuna tur edərək buradakı infrastrukturla yaxından tanış olublar.

✍ **Zamin Məmmədov,**
***“İki sahil”***

## Prezidentin Fərmanı xeyli sayda vətəndaşın sosial vəziyyətinin yaxşılaşmasına xidmət edəcək

Prezident İlham Əliyevin Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında fərmanı bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində məhz insan amili, vətəndaşlarımızın rifahı dayanır.

**Bunu Trend-ə açıqlamasında Milli Məclisin deputatı, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva deyib.**

G.Baxşəliyeva bildirib ki, bu fərman xeyli sayda vətəndaşın probleminin həllinə, sosial vəziyyətinin yaxşılaşmasına xidmət edəcək: “Əslində problemli kreditlər banklarla vətəndaşlar arasında olan bir məsələ idi, vətəndaşlar kredit almaqla banklar qarşısında öhdəliklər götürmüşdülər. Lakin dövlətimiz vətəndaşların bu öhdəliyini öz üzərinə götürdü. Bu fərmanla cənab Prezidentimiz təkcə vətəndaşların deyil, eyni zamanda bankların da problemini həll etmiş oldu”.

Deputat əlavə edib ki, bu baxımdan sözügedən fərman ölkənin bank sistemi və vətəndaşların kreditlərlə bağlı bundan sonrakı fəaliyyətlərinə də stimul yaradan bir amildir: “Çünki problemli kreditlər səbəbindən həm bankların işi ləngiyirdi, həm də vətəndaş yenidən kredit götürüb hər hansı bir bizneslə və ya bu kimi başqa fəaliyyətlə məşğul ola bilmirdi. Lakin artıq bu problem öz həllini tapdı, həm banklar, həm də vətəndaşlar üçün yeni imkanlar açıldı. Bunları nəzərə alaraq əminliklə deyə bilərik ki, cənab Prezidentin bu fərmanı problemli kreditlər məsələsini həll etməklə yanaşı, iqtisadi inkişafa, o cümlədən sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına, yeni iş yerlərinin açılmasına, bank sisteminin möhkəmlənməsinə səbəb olacaq”.



G.Baxşəliyeva vurğulayıb ki, bu fərman dünya ölkələri üçün də nümunəvi bir addımdır: “Prezident İlham Əliyevin qərarları bütün dünya üçün sosial inqilab nümunəsidir. Azərbaycan əhalinin sosial məsələlərinin həllində bütün dünyaya öz liderliyini nümayiş etdirdi. Birmənalı şəkildə demək olar ki, 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə sözün əsl mənasında inqilabi qərarlardır”.

# “GƏNC BİZNESMENLƏR”

**Quba rayonunun Püstəqasım kəndində Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi, Quba Rayon İcra Hakimiyyətinin və rayon Təhsil şöbəsinin təşkilati dəstəyi ilə “Gənc biznesmenlər” layihəsi həyata keçirilmişdir.**



Layihə çərçivəsində keçirilən təlimdə 50-yə yaxın şagird ümumi iqtisadi biliklərə, biznes anlayışlarına yiyələnmiş və öz ideyalarını təqdim etmişlər. Təlim müxtəlif modullardan, enercayzerlərdən və coffee breaklərdən ibarət olmuşdur. Sözügedən təlimdə, layihənin əsas məqsədinə uyğun olaraq region gənclərinin inkişafına dəstək olmaq üçün şagirdlərə, həmçinin sosial aktivlik, biznesi qurduqdan sonra düzgün marketinq siyasətinin aparılması və Gənclər Fondunun yaratdığı imkanlar haqqında ətraflı məlumat verilmişdir.

Təlim zamanı şagirdlərin mövzuları daha yaxşı qavramaları üçün yalnız nəzəri deyil, həmçinin praktiki metodlardan istifadə olunmuşdur. Ardıcıl olaraq təlimin ilk günü şagirdlər üçün layihənin təqdimatı olmuş və ümumi iqtisadi biliklər haqqında məlumat verilmişdir. Təlimin 2-ci günündə sosial aktiv gənc kimi formalaşmaq və sosial biznes, həmçinin marketinq haqqında söhbət aparılmışdır. Təlimin 3-cü günündə isə şagirdlər həm biznes sahəsi ilə daha geniş tanış olmuş, həm də komandalara bölünərək praktiki sessiyada iştirak etmişlər.

Təlimin sonunda layihədə fəal iştirak edən şagirdlərə sertifikat verilmişdir.

## QAZAXISTAN NEFT İXRACINI AZALDACAQ



Qazaxıstan cari il ərzində neft ixracını 2 %-ə qədər azaldaraq, 71 milyon tona çatdıracaq. Ölkənin enerji naziri “Röyter” agentliyinə müsahibəsində belə deyib.

Bu, 2018-ci ildə Qazaxıstandan xaricə göndərilən neftin həcmindən 72,5 milyon ton aşağıdır. Enerji nazirliyi ixracın azaldılmasının üç ən böyük yataqda təmirlə bağlı olacağını açıqlayıb.

Ölkədə hasilatın da aşağı salınaraq, 90,3 milyon tondan 89,5 milyon tona düşəcəyi gözlənilir.

Qazaxıstanın başlıca ixrac marşrutu Qərbi Qazaxıstandan Xəzər dənizi vasitəsilə Novorossiyskdə Qara dəniz limanına qədər uzanan kəmərdir. Cari il ərzində bu marşrut üzrə ixrac həcmi dəyişilməyəcək.

Qazaxıstan Atasu-Alaşankou kəməri ilə Çinə ixracı 0,5 milyon tonadək azaltmağı və Rusiyanın Orenburq emal müəssisəsinin neftlə təminatını tamamilə dayandırmağı nəzərdə tutub.

## YAPONİYA ŞİRKƏTİ ABŞ-da MÖHKƏMLƏNMƏK İSTƏYİR



Yaponiyanın “Inpex” korporasiyasının “Inpex Americas” qolu Texasda “İql Ford” yatağında çoxlu kəşfiyyat və hasilat aktivləri əldə etmək niyyətindədir. “Inpex” Texasın “GulfTex” enerji şirkəti ilə əməkdaşlıq etməyi qərara alıb.

Orada aktivlərin əldə edilməsi ilə “Inpex” ABŞ-ın neft kəşfiyyatı və hasilatı biznesinə qoşulacaq.

Şirkət qarşısına neft və qaz hasilatı fəaliyyətini yüksəltmək məqsədi qoyub. “Inpex” 2040-cı ilədək aktiv portfilini strateji cəhətdən də genişləndirmək niyyətindədir.

Yaponiyanın ən böyük kəşfiyyat və hasilat şirkəti olan “Inpex” hazırda 20-dən çox ölkədə 70 müxtəlif layihədə paya malikdir. Avstraliyada böyük “Ichthys” layihəsində operatordur.

## İKİ ASİYA ŞİRKƏTİ GÜCLƏRİNİ BİRLƏŞDİRİR



İndoneziyanın “Pertamina” və Malayziyanın “Petronas” dövlət enerji şirkətləri Anlaşma Memorandumu imzalayıblar. Bu Anlaşma Memorandumuna əsasən, şirkətlər kəşfiyyat və hasilat sahələri üzrə neft və qaz biznesini təkcə İndoneziya və Malayziyada deyil, digər ölkələrdə də birgə həyata keçirəcəklər.

Şirkətlər Şərqi Asiyada və başqa qitələrdə xam neft emalına investisiya yatırımını da nəzərdə tuturlar. Onlar xüsusilə texnologiya sahəsində əməkdaşlığı gücləndirəcəklər.

Bundan başqa, neft və qaz ticarəti, bərpa olunan enerji və bir çox digər sahələrdə birgə fəaliyyət göstərəcəklər.

“Pertamina”nın kəşfiyyat üzrə direktoru Dharmauan Samsu Malayziyanın neft və qaz yataqlarında payı artırmaq niyyətlərini də açıqlayıb.

# Sənət adamları: Belə bir görüşü çoxdan gözləyirdik

***Xəbər verildiyi kimi, martın 1-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər. Bu görüş mədəniyyət və incəsənət xadimlərinin yaddaşlarına necə həkk olunub? Bu sualla bir neçə tanınmış sənətkara müraciət etdik.***



***Xalq artisti, "Şöhrət" ordenli Mənsum İbrahimov:***

- Mədəniyyət, incəsənət xadimləri Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin, eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəniyyət və incəsənətə diqqət və qayğılarını həmişə hiss etmişik. Məsələn, son illər ölkəmizdə muğamımızın inkişafı istiqamətində çox böyük addımlar atılıb. Belə ki, 2008-ci ildə Bakıda və Ağcabədidə, 2010-cu ildə Füzulidə, ötən il Ağdamda inşa olunan Muğam mərkəzləri, eləcə də ənənəvi muğam televiziya müsabiqələri, beynəlxalq muğam festivalları ölkəmizdə muğamın inkişafına çox böyük töhfələr verib. Həmin görüşdə ölkə başçısı çıxışında muğam müsabiqələrindən də söz açaraq qeyd etdi ki, canlı yayımda göstərilən muğam müsabiqələri çox böyük auditoriya yığır. Bu gün qədim və zəngin mədəniyyətimizin vizit kartı hesab olunan muğamımız məhz bu diqqətin sayəsində dünyanı dolaşır.

Prezidentimiz bu sənəti yaşadanlara da həmişə qayğı ilə yanaşıb. Mən ölkə başçısının mədəniyyət və incəsənət xadimləri ilə martın 1-də keçirdiyi görüşün iştirakçısı, həm də muğamımızı yaşadan bir şəxs kimi deyə bilərəm ki, həmin görüş, ümumiyyətlə, Azərbaycan mədəniyyəti və incəsənətinin gələcək inkişafında öz müsbət və əvəzsiz rolunu oynayacaq.

***Xalq artisti, "Şöhrət" ordenli İlham Əhmədov:***



- Həmin görüşü maraqla izlədim. Tamamilə səmimiyyət üzərində qurulmuş bu tədbirdə problemlər, narahatlıq doğuran məqamlar dilə gətirildi. Məsələn, Afaq Bəşirovanın qaldırdığı problemi götürək. Görüşdə o, gənc sənətçilərin, xüsusilə, aktyorların durumundan söz açdı. Etiraf edək ki, digər sahələrdə çalışanlarla müqayisədə bu sahənin insanları bir qədər çətin durumdadırlar, yeni əməkhaqları istənilən səviyyədə deyil. Onlar əslində çox fədakar insanlardır. Prezident də yekun çıxışında bununla və digər problemlərlə bağlı məsələlərə toxundu və müvafiq göstərişlər verdi. Şübhəsiz, mən bundan çox məmnun qaldım. Əminəm ki, nəticələr tez bir zamanda özünü göstərəcək. Bir sözlə, bir sənət adamı kimi bu görüşü tarixi görüş kimi dəyərləndirirəm.

***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, Xalq artisti Vamiq Məmmədəliyev:***



- Həmin görüşdə son illər görülən işlərdən, o cümlədən təqaüdlərin, əməkhaqlarının, pensiyaların artırılmasından, problemli kreditlərlə bağlı analoqu olmayan fərmanın imzalanmasından və digər məsələlərdən də danışıldı. Bildirildi ki, ölkəmizin hər bir vətəndaşı bu addımları təqdir edir. Cənab Prezident "Bundan sonra nələr görülməlidir, onu da siz özünüz deməlisiniz" sözləri ilə görüş iştirakçılarına müraciət etdi.

Yeri gəlmişkən, hər kəsə bəllidir ki, möhtərəm Prezidentimiz verdiyi hər bir vədi yerinə yetirir. Biz həmişə bunun şahidiyik. Zənnimcə, hər səslənən təklif və ölkə başçısı tərəfindən atılan və atılacaq addımlar mədəniyyətimizin və incəsənətimizin yeni inkişaf mərhələsinə qədəm qoyması ilə nəticələnəcək. Bütün bunlara görə mən Prezidentimizə təşəkkürümü bildirirəm".

***Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov:***



- Əvvəla onu deyim ki, cənab Prezidentin bu görüşünün keçirilmə formatı mənə bir zamanlar ulu öndər Heydər Əliyevin mədəniyyət və incəsənət xadimləri ilə keçirdiyi çoxsaylı görüşlərini xatırlatdı. Doğrusu, hamımız belə bir görüşü çoxdan gözləyirdik. İkincisi, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə onların mədəniyyət və incəsənətimizə necə dəyər verdiklərinin bir daha şahidi oldum və bir daha qürur hissi keçirdim. Bu məni çox sevindirməklə yanaşı, yeni yaradıcılığa sövq edir. Şübhə etmirəm ki, bundan sonra da yaradıcı insanlar öz işlərinə daha məsuliyyətlə yanaşacaqlar. Odur ki, bu görüş 2019-cu ilin ən yaddaqalan, əlamətdar mədəni tədbiri, eləcə də xalq-iqtidar birliyinin sarsılmazlığı kimi yaddaşıma əbədi həkk olundu.

***AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun şöbə müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov:***



- Mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüş ölkə Prezidenti tərəfindən atılan çox mötəbər bir addımdır. Görüşün belə bir formatda, demək olar ki, bütün sahələrin nümayəndələrinin iştirakı ilə keçirilməsi onun əhəmiyyətini daha da artırırdı. Digər əhəmiyyətli məsələ mədəniyyət və incəsənətimizin müxtəlif sahələrində mövcud olan problemlərin ölkə başçısının diqqətinə çatdırılması idi. Mən mədəniyyət və incəsənət xadimlərimizin çıxışlarını konstruktivlik baxımından yüksək qiymətləndirir və onlara da öz adımdan dərin təşəkkürümü bldirirəm. Cənab Prezidentin bildirdiyi kimi, belə görüşlər müntəzəm olaraq keçiriləcək. Şübhəsiz, hər belə görüş mədəniyyət və incəsənətimizin də inkişafına çox yeni təkan verəcək və ölkəmiz dünya miqyasında daha çox tanınacaq. Unutmayaq ki, hər bir xalqı dünyada tanıdan onun mədəniyyəti, milli mənəvi dəyərləridir. Bu yerdə Ulu Öndərin bir kəlamını da xatırlatmaq istərdim: "Hər bir xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir".

**Qvami Məhəbbətoğlu, *"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**Çınqıla olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26016-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 29.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 05.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 05.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

## Mübarizlər, Fəridlər, Turallar yenə yetişəcək...

**Hərbi vətənpərvərlik tərbiyəsi dövlətimizin böyük əhəmiyyət verdiyi sahələrdən biridir. Hər bir soydaşımız doğma Vətəni sevməli, onun sərhədlərinin qorunması üçün lazım gəlsə canından da keçməyə hazır olmalıdır. Bu müqəddəs hiss isə onlara uşaq yaşlarında, yeniyetməlik və gənclik illərində aşılanmalıdır.**

Ermənistanın Dağlıq Qarabağ bölgəmizi və ona bitişik yeddi rayonu işğal altında saxlaması, erməni quldurlarının şəhər və kəndlərimizi dağıdıb xarabazara çevirməsi, ölkəmizin sərvətlərini talayıb aparması vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsini tələb edir. Uzun illər bu sahədə aparılan məqsədyönlü işlər artıq öz bəhrəsini verməkdədir. Gənclərimiz orduda hərbi xidmətə ruh yüksəkliyi ilə gedir, xidmət müddətində fərqlənməyə çalışır, komandirlərin əmr və tapşırıqlarını can-başla yerinə yetirirlər. İstər döyüş, istərsə də qeyri-döyüş şəraitində əsgər və zabitlərimiz Vətənə sevgilərini nümayiş etdirirlər.

Azərbaycan Prezidenti İlham Əliyev bir çox çıxışlarında vətənpərvərlik tərbiyəsinin vacibliyini xüsusi vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, hər bir Azərbaycan vətəndaşı xalqımız qarşısında öz borcunu ləyaqətlə yerinə yetirməlidir. Prezidentimizin oğlu gənc Heydər Əliyevin hazırda ordu sıralarında uğurla xidmət keçməsi buna ən yaxşı nümunədir.

Vətənpərvərlik tərbiyəsinin aşılanmasında məktəbəqədər tərbiyə müəssisələri, ümumtəhsil məktəbləri və ali məktəblərlə bərabər bir çox qeyri-hökumət təşkilatları, cəmiyyətlər və müxtəlif qurumlar da öz töhfələrini verirlər. Azərbaycanın qorxmazlıq və igidlik simvoluna çevrilmiş Milli Qəhrəman Mübariz İbrahimovun adını daşıyan Azərbaycan Vətənpərvərlər Cəmiyyəti xalqımızın igid oğluna məhəbbətdən yaranan təşkilatdır. Cəmiyyətin məqsədi Mübariz İbrahimovun və Milli Qəhrəmanlarımızın, döyüşlərdə və hərbi xidmətdə fərqlənən əsgər və zabitlərimizin həyat və döyüş yolları barədə məlumatları toplamaq və təbliğ etməkdir. Cəmiyyətin analitik informasiya proqramının rəhbəri Səadət Məhərrəmova bizimlə söhbətində bildirdi ki, qurum fəaliyyət göstərdiyi müddət ərzində bir çox tədbirlər həyata keçirib. Cəmiyyət üzvləri xalqımızın fəxri olan Mübariz İbrahimovun valideynləri ilə görüş keçirib. Bu görüş çox təsirli və yaddaqalan olub. Kürdəmir rayonunda şəhid Tural Qurbanovun ailəsi ilə görüş də yaddaşlardan silinməyəcək. Şəhidimizin məzarı başında keçirilən yığıncaqda bizimlə bərabər, onun qohum-əqrəbası, rayon ictimaiyyətinin nümayəndələri və yerli sakinlər də iştirak etdilər. Görüşdən xatirə olaraq fotoşəkillər çəkildi, audio və video çəkilişlər aparıldı.

Həmsöhbətimiz bildirdi ki, biz qəhrəmanlarımız haqqında mətbuatda və sosial şəbəkələrdə də təbliğat işlərinə önəm veririk. Təbii ki, belə tədbirləri qaynar bölgələrdə daha çox təşkil etməyə çalışırıq. Uşaqlarda və yeniyetmələrdə düşmənə nifrət, doğma torpağa, Vətənə məhəbbət aşılamaq üçün müxtəlif mədəni-kütləvi tədbirlərdən istifadə edirik. Belə tədbirlərin mövzusu əsasən ermənilərin xalqımıza yaşatdıqları faciələrə, Xocalı qətliamına, şəhidlərimizin doğum və anım günlərinə, rayonlarımızın işğal günlərinə həsr olunur.

Qeyd etmək yerinə düşər ki, Səadət Məhərrəmova gözəl şeirlər müəllifidir və onların bir çoxu qəhrəmanlarımıza, igid oğullarımıza həsr olunub. O, gələcəkdə onların həyat və igidliklərindən bəhs edən irihəcmli əsərlər də yazmaq niyyətindədir.

Əlbəttə, canlarını Vətən yolunda qurban verən qəhrəmanlarımız haqqında gözəl əsərlər yaradılmalıdır. Bunun özü də təbliğatın bir sahəsidir. Həmin əsərlərdə bizim şanlı tarixi keçmişimiz, görkəmli sərkərdələrimiz, qorxmaz döyüşçülərimiz uşaq və gənclərimizə tanıdılmalı, igidlikləri örnək kimi nümunə göstərilməlidir.

II Dünya müharibəsində faşistlərə qarşı döyüşlərdə mərdlik və şücaət göstərən Sovet İttifaqı Qəhrəmanları Mehdi Hüseynzadə, Həzi Aslanov, Qafur Məmmədov, Akim Abbasov barədə yazılan poemalar, roman və povestlər, çəkilən kinofilmlər olduqca dəyərlidir. Bütün bunlar gənc nəslin əsl vətənpərvər kimi yetişməlarinə müsbət təsir göstərir. Gələcək nəslin Vətənə məhəbbət ruhunda tərbiyə edilməsi cəmiyyətdə belə bir əminlik yaradır ki, Mübarizlər, Turallar, Fəridlər yenə də yetişəcəklər, belə igid oğulların polad çiyinlərində Azərbaycan dünyaya Günəş kimi doğacaq.

**Vəli İlyasov,**
***"İki sahil"***

# "Elçisi gülüm olanın..."

## YAXUD BİR XƏYANƏTKARIN AQİBƏTİ...

Xəbər verildiyi kimi, Azərbaycana qarşı radikal mövqe tutan, separatçı "Talış Milli Hərəkatı" adlanan qondarma qurumun rəhbəri Fəxrəddin Abbasov Moskva vilayətinin Lyuberets rayonunda həbs olunmuşdu.

Sözügedən şəxsin Rusiya Federasiyasında müvəqqəti yaşamaq hüququ müddətinin bitməsi ilə əlaqədar Moskva vilayəti Lyuberetsk şəhər məhkəməsinin deportasiya haqqında qərarı icra olunarkən o, 28 fevral 2019-cu ildə Bakı şəhəri Beynəlxalq Hava Limanında Azərbaycan Respublikası hüquq mühafizə orqanları tərəfindən saxlanılıb və istintaqa cəlb edilib.

Dövlət Təhlükəsizliyi Xidmətində istintaqı aparılan cinayət işi üzrə Azərbaycan Respublikasının vətəndaşı Abbasov Fəxrəddin Fərman oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2 (Dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.1-ci (Milli, irqi nifrət və düşmənçiliyin salınması, milli ləyaqətin alçaldılması) maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinərək, bu əməllərə görə təqsirləndirilən şəxs kimi məsuliyyətə cəlb edilməsinə dair qərar qəbul edilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin açıqlamasına görə, hazırda F. Abbasovun Ermənistan Respublikasına səfərləri, özünün də bildirməsinə görə, Ermənistan xüsusi xidmət orqanı əməkdaşları ilə apardığı görüş və əlaqələrinin mahiyyəti, Ermənistan Respublikasında keçirilən və kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə yayımlanan tədbirlərə canlı yayımda qoşularaq Azərbaycan Respublikası və onun ərazi bütövlüyü əleyhinə etdiyi çağırışlar və digər əlaqəli məsələlərlə bağlı istintaq araşdırmaları davam etdirilir.

Doğulduğu torpağa qarşı xəyanətkar əməlləri ilə "məşhurlaşan", öz dövlətini satan bu üzdəniraq "azərbaycanlının" ləkəli avtobioqrafiyasına qısa ekskurs etməklə onu daha yaxından tanıyaq.

Özünü Faxroddin Aboszada adlandıran sözügedən şəxs Azərbaycana düşmən kəsilən separatçı, bir zamanlar ölkəmizi bölməyə və "Talış-Muğan Respublikası" yaratmağa cəhd göstərmiş xəyanətkar Əlikram Hümbətov tərəfindən 1993-cü ildə adıçəkilən qondarma qurumun "parlamentinin spikeri" təyin olunmuşdu. Dövlətçiliyimizə qarşı yönəlmiş bu rezil xəyanət ifşa olunub günahkarlar cəzalandırılanda F. Abbasov qaçıb Rusiyada özünə sığınacaq tapmışdı. Gizlənməklə də kifayətlənməyib oradan uzun müddətdir Azərbaycan dövlətçiliyi əleyhinə mütəmadi təxribat xarakterli kəskin çıxışlar edən Vətən xaini F. Abbasov ermənilərə məxsus mətbuat orqanlarında da ölkəmizə qarşı separatçı çıxışlar etməkdən çəkinməyib. Dəfələrlə İrəvanda separatçı tədbirlərə qatılan F. Abbasovun Ermənistan xüsusi xidmət orqanları ilə sıx əlaqədə olduğu bildirilir.

F.Abbasovun öz xalqına xəyanətlərinin miqyasını anlamaq üçün 2016-cı il fevralın 27-də- Azərbaycan xalqının Xocalı soyqırımının növbəti ildönümünü böyük ürəkağrısı ilə qeyd etdiyi bir vaxtda bu Vətən xaininin özü kimi xəyanətkar İsmayıl Şabanovla birgə İrəvanda telekörpü vasitəsilə bir tədbirə qatılmasını xatırlatmaq yetərlidir. Həmin telekörpüdə düşmən dəyirmanına su tökən bu satqın Azərbaycan dövlətinə və dövlətçiliyinə qarşı xislətinə uyğun olaraq rəzil ifadələr səsləndirmişdi.

Qeyd edək ki, bu xəyanətkarın Rusiyada tutulması da, daha sonra Azərbaycana təhvil verilməsi də onun erməni havadarlarına ağır təsir edib. Belə ki, işğalçı Ermənistanın mətbuatında separatçının Azərbaycana təhvil verilməsi ilə bağlı hədyan yazılar dərc edilməkdədir. Yazı müəllifləri cinayətdə təqsirli bilinən bir şəxsin Azərbaycana təhvil verilməsini "Kremlin rəsmi Bakıya hədiyyəsi" kimi dəyərləndirməyə də cəhd edib olaya siyasi don geyindirməyə çalışırlar.

Halbuki məlum deportasiya və təhvilvermə separatçının erməni ha-



vadarlarının dediyi kimi, hədiyyə deyil. Bu, beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, Rusiya dövlətinin Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və bölünməzliyinə ehtiram əlaməti olaraq federal axtarışda olan separatçı cinayətkarın zərərsizləşdirməsi üçün həssas və sayıq münasibətinin göstəricisidir. Burada erməniləri qıcıqlandıran əsas məqam həm də Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyəli inkişafıdır.

F.Abbasov işğalçı Ermənistan mediasının qeyd etdiyi kimi, qətiyyən "talışların lideri" sayıla bilməz. Beləsi sadəcə özü kimi separatçı ermənilərin, xəyanətkar ünsürlərin əlaltısı ola bilər.

Azərbaycan yüzillərdir bu torpağı özlərinə yurd seçən talışların da Vətənidir, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə bu Vətənin yüzlərlə qeyrətli talış övladı canlarından keçib şəhidlik zirvəsinə ucalıblar. Azərbaycan dövləti öz qəhrəman övladlarının şücaətini unutmadığı kimi, üzdəniraq xainlərin Vətənə xəyanətini də bağışlamır. Azərbaycan dövlətçiliyinə qarşı yönələn bu kimi xəyanətlərin və satqınlıqların qarşısı həmişə alınır və bundan sonra da alınacaq.

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

# *Deputat:* Vətəndaşların problemli kreditlərinin həlli bütövlükdə ölkə iqtisadiyyatının inkişafına böyük töhfə verəcək



Prezident İlham Əliyevin Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında fərmanı ölkə vətəndaşlarına diqqət və qayğının daha bir nümunəsidir. **Bunu Trend-ə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov bildirib.**

A.Hüseynov qeyd edib ki, bu fərman vətəndaşlar tərəfindən böyük sevinclə qarşılandı. Deputat vurğulayıb ki, Prezidentin bu fərmanı vətəndaşların probleminin həlli ilə yanaşı, ölkə iqtisadiyyatında da böyük stimul olacaq: "Problemli kreditlərin həlli Azərbaycan hakimiyyətinin ciddi sosial təşəbbüsüdür və vətəndaşların rifah halını daha da yüksəltmək, onların maliyyə yükünü azaltmaq, dünya bazarında neftin qiymətinin 3-4 dəfə azalması ilə bağlı baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə üzləşdiyi maliyyə itkisini qarşılamaq məqsədi daşıyır. Eyni zamanda bu fərman bank sisteminin stimullaşdırılmasına, onların maliyyə dövriyyələrin artmasına səbəb olacaq ki, bu da banklara yeni kreditlər vermək imkanı yaradacaq. Problemli kreditləri həll olunmuş şəxslər isə yenidən kredit götürüb öz bizneslərini inkişaf etdirmək və ya həyat şəraitlərini yaxşılaşdırmaq imkanı əldə edəcəklər. Bütün bunlar isə bütövlükdə ölkə iqtisadiyyatının inkişafına böyük töhfə verəcək".

Deputatın sözlərinə görə, problemli kreditlərin həlli eyni zamanda ölkəmizin beynəlxalq təşkilatların reytinqlərində də yerini yaxşılaşdıracaq ki, bu da ölkəmizə yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq: "Bu Fərmanın həm sosial, həm də iqtisadi baxımdan ölkəmiz üçün faydaları olduqca böyükdür. Bu fərmanı inqilabi addım adlandırmaq olar. Azərbaycan dövləti əhalinin rifah halını yüksəltmək məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər görür, iqtisadi və institusional islahatlar həyata keçirilir, bununla da vətəndaşların yaşayış səviyyəsi yaxşılaşdırılır, yeni iş yerləri açılır, əhalinin məşğulluğunun və gəlirlərinin artması təmin edilir, yoxsulluq səviyyəsinin daha da azalması üçün işlər görülür. Bütün bunlar göstərir ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində insan amili və onun rifahı dayanır".

# Sağlam düşüncə, sağlam gələcək



**Hər bir xalqın gələcəyi onun sağlam gəncliyinin əlindədir. Uşaqlarımız nə qədər sağlam, gəncliyimiz nə qədər gümrah olsa gələcəyimizin əmin əllərdə olduğundan o qədər əmin olarıq. Təbii ki, bu mənada dövlətimiz gənc nəslin sağlam böyüməsi, eləcə də onların milli mənlik şüurunun inkişaf etdirilməsi məqsədilə davamlı islahatlar həyata keçirir.**

Ümumiyyətlə, ölkəmizdə müstəqillik elan edildikdən sonra uşaq və gənclərin fiziki mənəvi inkişafı istiqamətində lazımi siyasət həyata keçirilmişdir. Aparılan siyasətinin məntiqi nəticəsidir ki, bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında fəal sosial təbəqə kimi demokratikləşmə prosesində iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə yüksək nailiyyətlər əldə edir, ümumilikdə dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində yaxından iştirak edirlər.

Bu sahəyə xüsusi diqqət ayıran ulu öndər Heydər Əliyev uşaqların sağlam ruhda bilikli, hərtərəfli böyümələri yönündə bir sıra tədbirlər həyata keçirmiş, bununla bağlı bir çox Fərman və Sərəncamlar imzalamışdır. Ümummilli Lider uşaqların təhsilinə, onların savadlı və cəmiyyət üçün yararlı bir vətəndaş kimi yetişməsinə çalışmışdır. O, hər zaman "uşaqlar bizim gələcəyimizdir" deyirdi. Bu gün Ümummilli Lider uğurlu siyasətinin davamını məqsədyönlü şəkildə davam etdirən cənab İlham Əliyev siyasətində bu sahə heç də geridə qalmır. Əksinə, dövlətimiz tərəfindən bu sahənin inkişafı ilə bağlı keyfiyyətli işlər görülməyə başlandı. Respublikada uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə mütəmadi olaraq dövlət proqramlarının həyata keçirilməsi istiqamətində bir çox Sərəncamlar imzalanır, bu kontekstdə mühüm tədbirlər həyata keçirilir.

Bu gün uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan hökuməti tərəfindən önəmli işlər görülmüşdür. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət uşaq siyasətinin artıq milli strategiya kimi formalaşdığını qeyd edən Milli Məclisin deputatı Sədaqət Vəliyeva açıqlamasında bildirdi ki, gələcəyimiz olan uşaqların hüquqlarının təmin edilməsi, uşaq problemlərinin ardıcıl həlli, onların mənəvi və fiziki inkişafı ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir: "Son illərdə uşaqların sağlamlığının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təhsil alması, sosial-psixoloji baxımdan mühafizəsi, vətənpərvər və sağlam yetişməsi üçün lazımi şəraitin təmin edilməsinə yönəlmiş mühüm addımlar atılmaqdadır. Azərbaycanda uşaqların sağlam və vətənpərvər böyüməsinə verilən dəyərin göstəricisi kimi hələ 2009-cu ildə Azərbaycanda Prezident Sərəncamı ilə "Uşaq ili" elan edilmişdi. Bu, uşaq siyasəti istiqamətində əlavə tədbirlərin həyata keçirilməsinə geniş imkanlar açmış, dövlət orqanlarının və vətəndaş cəmiyyətinin diqqətinin bir daha uşaqların problemlərinə cəlb etmək baxımından böyük əhəmiyyət kəsb etmişdir. Hazırda uşaqların dövlət qayğısı ilə təmin edilməsi, hüquqlarının müdafiəsi daim diqqət tələb edən məsələlərdəndir. Bu gün uşaqlara göstərilən tibbi yardımın keyfiyyətinin artırılması, uşaq ölümü hallarının azaldılması, uşaqlar arasında xəstəliklərin profilaktikası, yüksək səviyyəli ümumi orta təhsilin təmin edilməsi və təhsil sisteminə nəzarətin həyata keçirilməsi də diqqət mərkəzindədir. Məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və psixoloji inkişafının, onların şəxsiyyətinin hərtərəfli formalaşmasının və məktəbə hazırlanmasının təmin edilməsi, uşaqların yaradıcılıq mühitində böyüməsi və idmanla məşğul olması üçün zəruri şəraitin yaradılması prioritet istiqamətlər sırasındadır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara, habelə aztəminatlı, çoxuşaqlı, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlara dövlət qayğısının göstərilməsi də xüsusi önəm daşıyır".

Azərbaycan xalqının milli mənəvi dəyərlərinə əsaslanan dövlət uşaq siyasəti çərçivəsində cəmiyyətimizin əsas özəyi olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, təhsilin və səhiyyənin səviyyəsinin artırılması, uşaq yaradıcılığının dəstəklənməsi, xüsusi qayğıya ehtiyacı olan uşaqların problemlərinin həlli, yetkinlik yaşına çatmayanların baxımsızlığının qarşısının alınması, uşaqlar tərəfindən qanun pozuntularının profilaktikası və digər sahələrdə önəmli dövlət proqramları qəbul edilib. Deputat onu da qeyd etdi ki, eyni zamanda, Milli Məclisdə uşaqların hüquqlarının qorunması və inkişafı ilə əlaqədar bir sıra qanunlar qəbul olunub. Bir sözlə, bu gün Azərbaycanda uşaqların hərtərəfli inkişafı üçün həm qanunvericilik, həm də digər sahələrdə əhəmiyyətli işlər görülüb və bundan sonra da səmərəli işlərin aparılması üçün mühüm addımlar atılacaqdır.

Gənclərə həmişə yüksək diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verən, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirən ümummilli lider Heydər Əliyev daim gənclərə qayğı göstərmiş, onların bir fərd kimi yetişməsinə xüsusi önəm verdiyini qeyd edən Milli Məclisin deputatı Eldəniz Səlimov isə açıqlamasında bildirdi ki, Ulu Öndər respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində də misilsiz işlər görmüşdür: "Göründüyü kimi, bu gün bir çox sahədə olduğu kimi, bu sahədə də Azərbaycan bir çox ölkələri qabaqlayıb. Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Artıq Azərbaycanda gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ümummilli Liderin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur. Hətta bu yaxınlarda Prezident İlham Əliyevin imzaladığı Fərmana əsasən, ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan bakalavr, magistrant və doktorantların təqaüdlərinin artırılması dövlətimizin gənclərə diqqət və qayğısının daha bir təzahürüdür. Bu bir daha sübut etdi ki, hər zaman gəncliyə böyük əhəmiyyət verən ölkə başçısı bu dəfə də onların maddi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edən addım atıb".

Bu gün Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Məhz Prezident İlham Əliyevin möhkəm iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın ən qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızın nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın qazandığı uğurları bu sahəyə ayrılan diqqətin əyani sübutudur.

Deputat onu da qeyd etdi ki, təsadüfi deyil ki, beynəlxalq yarışlarda qazanılan idman nailiyyətlərimizin də sayı ildən-ilə artır: "Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq bu göstəriciyə görə, 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bundan başqa, milli komandamızın ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" Birinci Avropa Oyunlarında ikinci, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması, ötən il şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu olmaları Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurların bariz nümunəsidir".

"Hazırda ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, orada gənclərin əksəriyyət təşkil etdiyini görmək mümkündür. Təbii ki, bu, Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Prezident İlham Əliyev gənclərə olan münasibətini belə ifadə edib: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Gənclər də öz növbəsində dövlət qayğısını daim öz üzərlərində hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər", - deyə E.Səlimov bildirdi.

Hər halda sağlam gəncliyin cəmiyyət və dövlət üçün nə qədər önəmli olduğunu yaxşı bilirik. Buna görə də sağlam düşüncəli vətəndaş yetişdirmək, neft kapitalını insan kapitalına çevirmək qarşıda duran əsas istiqamətdir. Gənclik güzgüdür. Bu güzgü nə qədər təmiz olsa, özümüzü və özümüzün simasında gələcəyimizi o qədər aydın görərik.

*Mənsumə Babayeva,*
*"İki sahil"*

***Yazı Azərbaycan Respublikasının Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.***

# "Bakcell"in 4G şəbəkəsi artıq bütün ölkə ərazisini əhatə etməkdədir




"Bakcell" şirkəti artıq ölkənin bütün bölgələrində yüksək keyfiyyətli 4G xidmətlərini təqdim edir. Artıq Bakı, Abşeron yarımadası və Azərbaycanın bütün şəhər və rayonlarında (Naxçıvan Muxtar Respublikası və işğal olunmuş ərazilər istisna olmaqla) yaşayan "Bakcell" abunəçiləri şirkətin təqdim etdiyi yüksək sürətli mobil İnternet xidmətlərindən yararlana bilirlər.

Qeyd edək ki, 1700-dən artıq 4G stansiyası sayəsində "Bakcell" şirkəti əhatə dairəsi və şəbəkə tutumu baxımından ölkədə ən böyük LTE şəbəkəsinə malikdir.

"Bakcell" 2018-ci il ərzində mobil internet xidmətlərini ölkənin regionlarına doğru genişləndirməyə davam edib. Şəbəkəyə yatırılan iri həcmli sərmayələr nəticəsində keçən il 300-ü regionlarda olmaqla 800-dən artıq 4G stansiyası quraşdırılıb. İstifadəçilər üçün ən yüksək keyfiyyətin təmin olunması istiqamətində aparılan işlərin davamı olaraq bu il ərzində ölkə ərazisində 750-dən çox 4G baza stansiyası istifadəyə veriləcək.

"Bakcell" öz şəbəkəsinin etibarlılığını və sabitliyini təmin etmək məqsədilə müntəzəm olaraq şəbəkə infrastrukturunu təkmilləşdirir.

"Bakcell" şirkəti bazarda lider mövqeyini daha da gücləndirmək və xidmətlərin keyfiyyətini daha da artırmaq məqsədilə Azərbaycanın ən keyfiyyətli 4G şəbəkəsinə iri həcmli sərmayələr yatırır. Məqsədimiz odur ki, 4G xidmətlərimiz bütün ölkə ərazisində təmin olunsun. Buna görə də şəbəkəmizin əhatə dairəsi və keyfiyyətinin artırılmasına yönəlmiş işlər davam etdiriləcək", deyə "Bakcell" şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

"Bakcell"in təmin etdiyi keyfiyyət və ən yüksək mobil İnternet sürətinə yerli və beynəlxalq səviyyədə yüksək qiymət verilir. Belə ki, 2018-ci ildə "Bakcell" "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Dünyada tanınmış "Ookla" şirkəti tərəfindən təsdiq edilib ki, "Bakcell" şəbəkəsi ölkədə ən yüksək orta yükləmə sürəti və ən aşağı gecikmə müddətinə (latency time) malikdir. 2017-ci ildə isə mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən "Bakcell" şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test").

"Bakcell" özünün yüksək keyfiyyətli mobil şəbəkəsinin genişləndirilməsi və modernrizasiyasına yönəlmiş irimiqyaslı tədbirləri davam etdirəcək.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**ikitavrlara (60B1 və 60B2) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25050-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 27.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 02.04.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 590 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin veriləcək sifariş əsasında 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 02.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**müxtəlif ikitavrlara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25051-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 27.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 02.04.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 590 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin veriləcək sifariş əsasında 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 02.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

Son səhifə

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 43 (7298) / Çərşənbə axşamı, 5 mart 2019-cu il



# Xarici görünüşə təsir edən vərdişlər

**Gün ərzində mexaniki olaraq təkrarladığımız vərdişlərimiz var: əllərimizi kremləmək, saqqız çeynəmək, makiyaj etmək və ya telefonla məşğul olmaq kimi mexaniki vərdişlər. Təəssüf ki, bu vərdişlərdən bəziləri biz fərqində olmadan gözəllik və sağlamlığımıza mənfi təsir göstərə bilər.**

İlk baxışdan zərərli görünməyən bəzi vərdişlərimizin mənfi təsirləri gündən-günə artmaqdadır.



**Kompyuter önündə və ya dərs oxuyarkən əllərimizi üzümüzə söykəmək**

Əksər hallarda, kompyuter qarşısında yorğunluq hiss etdiyiniz zaman əlimizi çənə və ya üzümüzə aparırıq. Lakin bu vəziyyət olduqca təhlükəlidir.

Çənənizin qolunuzla dəstəklənməsi yavaş-yavaş çənə sümüyü və qulağın arasına yerləşən hioid sümüyünə (dil sümüyünə) zərər verir.

**Ayağınızı ayağınızın üstünə qoymaq**

Bu hərəkət varikoz damarlarına zərər verən bir hərəkətdir. Uzun müddət ayağınızı ayağınızın üzərində saxlamaq qan axmasına mane olur və sağlamlıq problemləri yaradır.

**Günəş kremini sadəcə üzə vurmaq**

Günəş kremini sadəcə üzə tətbiq etmək kifayət deyil. Yaş artdıqca günəş işığının səbəb olduğu dəri zərərinə qarşı həssaslıq artır. Bu səbəblə, günəş kremi istifadə etdikdə sadəcə üzümüzə deyil, boyun və sinə sahəsinə də vurmalıyıq.

**Duş qəbul etdikdən sonra saçı daramaq**

Duşdan sonra saçlarınızı daramaq ən çox yayılmış və vərdiş halına gəlmiş hərəkətlərdən biridir. Lakin bu, saçınıza zərər verə bilər. Bunun səbəbi yaş saçların quru saçlara nisbətən daha həssas olmasıdır və daradıqda zədələnir. Belə olduqda, saç tökülməsi halları da qaçılmaz olur.

Saçınızın gözəlliyini qorumaq üçün onları bir dəsmalla astaca qurutmalı, ya da təbii şəkildə qurumasını gözləməlisiniz. Saçınız tamamilə quruduqdan sonra uzunluğu necə olursa olsun, saçlarınızın altından başlayaraq daramağa başlayın.

**Yatmazdan öncə mobil telefonlarla vaxt keçirmək**

Mobil telefonunuzda əks olunan mavi işıq normal yuxu rejiminizi pozacaq və melatonin hormonunu boğa bilən təsirə sahibdir. Bundan sonra immunitetiniz zəifləyir və orqanizmin endokrin sistemində problemlər yaranır.

**Televizorda film izləmək**

Alimlər uzun müddətdir ki, televiziya ekranlarında və mobil qurğularda əks olunan mavi işığın təhlükələrindən bəhs edirlər. Mavi işıq dərinin alt təbəqələrinə qədər çatan və sərbəst radikalları aktivləşdirən, dərinin elastikliyini və rahatlığını təmin edən kollageni məhv edən fermentlərin istehsalına səbəb olur.

Nəticədə dəriniz vaxtından tez yaşlana və dərinizdə ləkələr əmələ gələ bilər. Bəzi dermatoloqlar bunun üçün UV qoruyucu tərkibli kremlərdən istifadə etməyi məsləhət görür, bəzi insanlarsa bunun təsirsiz olduğunu düşünürlər.

**Yağlı dəridə kirşandan istifadə etmək**

Dəriniz yağlıdırsa kirşandan istifadə etmək həmişə doğru üsul ola bilməz. Dərinizin yağlı olmasına baxmayaraq, üz dərinizdəki məsamələrin tıxanmasına və sızanaqların artmasına səbəb olur.

İlk olaraq, artıq yağ xüsusi ləkə kağızı ilə təmizlənməli və daha sonra kirşan tətbiq etmək lazımdır.

**Saqqız çeynəmək**

Tez-tez saqqız çeynəmək çənə quruluşunun pisləşməsinə səbəb ola bilər. Ağzın kənarlarında qırışların yaranmasına da səbəb ola bilər. Buna görə də saqqızı kobud və sərt formada çeynəmək əvəzinə asta və yumşaq tərzdə çeynəyə bilərsiniz.

**İsti su ilə duş qəbul etmək**

Gərgin və stressli bir günün sonunda rahatlamaq üçün isti su ilə duş qəbul etməyi düşünə bilərsiniz. Lakin suyun temperaturunu yaxşı tənzimləmək lazımdır. Əks təqdirdə, isti suyun altında olan dərinizin balansı pisləşəcək və irritasiya, quruluq, infeksiya və qaşınma kimi problemlərlə qarşılaşacaqsınız.

**Röya Rasimqızı,**
**"İki sahil"**

# Cüdoçumuz Avropa kubokunda qızıl medal qazanıb



Türkiyənin Antalya şəhərində yeniyetmələr arasında keçirilən cüdo üzrə Avropa kuboku başa çatıb. Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, yarışın son günü Azərbaycan milli komandasının 2 üzvü medal qazanıb. Yeniyetmə cüdoçularımız 1 qızıl və 1 gümüş medala layiq görülüblər.

Qızların yarışında 57 kq çəki dərəcəsində çıxış edən Aytac Qardaşxanlı bütün rəqiblərinə qalib gələrək Antalya turnirinin çempionu olub.

Oğlanların mübarizəsində ölkəmizi təmsil edən Elcan Hacıyev (73 kq) yalnız finalda uduzaraq gümüş medal qazanıb. Beləliklə yeniyetmə cüdoçularımız Türkiyədə 1 qızıl, 3 gümüş və 1 bürünc medala sahib olublar.

Beynəlxalq turnirin ilk günü Kamran Süleymanov (55 kq) və Nahid İsmayılov (66 kq) gümüş medala, Şükran Zamanlı (55 kq) isə bürünc medala layiq görülüb.

Qeyd edək ki, Antalya turnirində 16 ölkədən 495 yeniyetmə cüdoçu mübarizə aparıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın Ekologiya İdarəsinin rəhbərliyi və kollektivi SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun direktoru Roman Nağıyevə, əmisi oğlu

**Nofəl Nağıyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın Neft Kəmərləri İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın İqtisadiyyat və Uçot İdarəsinin rəis müavini Vaqif Mustafayevə, bacısı

**Xəzəngül xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin rəis müavini İlqar Həmzəyevə, anası

**Şükufə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vüqar Rəhimzadə SOCAR-ın İqtisadiyyat və Uçot İdarəsinin rəis müavini Vaqif Mustafayevə, bacısı

**Xəzəngül xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymaov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin Qala Təlim-Tədris Mərkəzinin müdiri Mirxəlil Seyidova, bibisi

**Səkinə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin Ə.Əmirov adına NQÇİ-nin rəis müavini Rahib Abıyevə, anası

**Hökumə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Azneft" İB-nin "Abşeronneft" NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin Ə.Əmirov adına NQÇİ-nin rəis müavini Rahib Abıyevə, anası

**Hökumə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Azərbaycan atleti Avropa çempionu oldu




Azərbaycan atleti Nazim Babayev Avropa çempionu olub. İdmançımız Şotlandiyanın Qlazqo şəhərində keçirilən yüngül atletika üzrə Avropa çempionatında üç təkanla uzunluğa tullanma yarışında 17.29 nəticə göstərərək qızıl medal qazanıb. Portuqaliyalı Nelson Evora 2-ci (17.11), alman Maks Hess isə 3-cü (17.10) olub.

N.Babayev bu nəticə ilə həm də öz şəxsi rekordunu yeniləyb.

# Yağış, duman, külək

Azərbaycanda bu günə, martın 5-nə olan hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Milli.Az-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında martın 5-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin martın 4-dən 5-nə keçən gecə bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 2-5, gündüz 8-11, Bakıda gecə 3-5, gündüz 9-11 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 55-65 faiz olacaq.

Azərbaycanın rayonlarında bu gün hava əsasən yağmursuz keçəcək. Lakin gecə



və səhər bəzi cənub rayonlarında yağış yağacağı gözlənilir. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 0-5, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 1-6 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza gəlincə, martın 5-də Abşeron yarımadasında iqlim normasına yaxın temperatur rejimi və meteoroloji amillərin zəif tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Təsisçi:
SOCAR

Baş redaktor:
Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini:
İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan:
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb:
05.03.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8287
İndeks: 0151, Sifariş: 445

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.